

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Xalqa bəxş edilən ömür



5

№ 224 (6907)

7 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Qarabağ:

## 30 ildən sonra evə dönüş



2

İlham Əliyev: "Biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik"

# Paşinyandan "ikili agent" gedişi



11

Qərbin və Rusiyanın istəklərini eyni vaxtda yerinə yetirmək üçün son addım

## 2024-cü ilin dövlət büdcəsi nə vəd edir?



15

## Qarabağda ekosid: talana görə təzminat tələb olunacaq



12

## Qürurla verilən vəd qətiyyətlə gerçəkləşdirilir!



8

## Qadınlara kim qənim kəsilib?



13

## FRANSA: demokratiyanın beşiyində, yoxsa eşiyində?..



13

# Qarabağ:

## 30 ildən sonra evə dönüş

### İlham Əliyev: "Biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik"

**Dünyanın ən inkişaf etmiş ölkələri sırasında inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzində olan Azərbaycan son illər ardıcıl olaraq çox nüfuzlu beynəlxalq tədbirlərə, toplantılara ev sahibliyi edir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin dövlət maraqlarımıza uyğun formada keçirilməsi də təqdirəlayiqdir.**

Paytaxt Bakı daha bir beynəlxalq tədbirə - "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Foruma ev sahibliyi edir. Ənənəvi xarakter almış forumda dünyanın müxtəlif ölkələrindən 60-dan artıq beyin mərkəzinin rəhbəri, tanınmış ekspert və politoloq iştirak edir. Açıq formada keçirilən müzakirələrdə dünyada və regionumuzda cərəyan edən proseslər, baş verən hadisələr təhlil olunur, dövrümüzün aktual məsələləri ətrafında fikir mübadiləsi aparılır.

### "BİZ REGİONA SÜLHÜ ARTIQ GƏTİRMİŞİK"

Müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir. "Biz regiona sülhü artıq gətirmişik. Biz onu müharibə yolu ilə etmişik. Məncə, buna daha geniş diqqət yetirilməlidir. Bu, təkcə Qafqazla bağlı deyil. Sülhə hərbi yolla necə nail olmaq olar, biz bunu nümayiş etdirdik". Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirib. "İşğal dövründə






Minsk qrupunun həmsədrlərindən münaqişənin hərbi yolunun olmaması ilə bağlı vahid mövqe eşitdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Biz sübut etdik ki, hər üç ölkə yanıldı. Dövlətçilik tarixlərinə, beynəlxalq təcrübələrinə və onların BMT Təhlükəsizlik Şurasının üzvləri olmalarına baxmayaraq, onlar yanıldılar. Bu, yanlış qiymətləndirmə idi. Azərbaycana müəyyən bir mesaj idi ki, siz hərbi yola əl atsanız buna müvəffəq olmayacaqsız. Lakin biz bunu sübut etdik ki, bu münaqişənin hərbi yolu var. Bu münaqişə 3 il bundan əvvəl həll edildi".

Xatırlatmaq yerinə düşər ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tariximizə qələbə yazıldı. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

### "ƏLİMİZDƏN GƏLƏNİ EDƏK Kİ, MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN MAKSİMAL HƏYAT ŞƏRAİTİ YARADILSIN"

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpaquruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. İşğaldan azad olunan ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. "Biz də çalışırıq əlimizdən gələni edək ki, məcburi köçkünlər üçün maksimal həyat şəraiti yaradılsın onlar buna layiqdirlər. Onlar, həmçinin psixoloji sarsıntı keçiriblər" - deyən Prezident bildirib ki, biz istəyirik ki, proses mümkün qədər tez getsin. Lakin biz anlayırıq ki, ən yaxşı memarlıq təcrübəsinə əsaslanaraq, ən yaxşı texnologiyalardan irəli gələrək, yaşıl texnologiyaları tətbiq etməklə və həmçinin ən yaxşı şəraitləri yaratmaqla buna nail olmalıyıq".

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Bu Azərbaycanın gücünün göstəricisidir.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Qarabağ:

## 30 ildən sonra evə dönüş

### İlham Əliyev: "Biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik"

**”BİZ QAYIDIŞ PROSESİNİ PLANLI HƏYATA KEÇİRİRİK”**

Bildiyimiz kimi, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əks olunmuş ”İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edildi. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

”Biz keçmiş məcburi köçkünləri layiqli iş yerləri ilə təmin edə bilərik, şərait yarada bilərik. Yeri gəlmişkən söyləyim ki, həmin sahələrdə məşğulluq məhz vacib məsələdir. Bir halda ki, biz qayıdış prosesini planlı həyata keçiririk və qayıtmış insanların əksər hissəsi artıq bu iş yerlərinə malikdir, bu onu göstərir ki, tətbiq edilmiş yanaşma tamamilə əhatəlidir” - deyə Prezident diqqətə çatdırıb. İkinci Qarabağ müharibəsindən sonrakı illər ərzində Qarabağ ermənilərini öz vətəndaşlarımız hesab etdiyimizi xatırladan dövlətimizin başçısı bildirib ki, bu, hər hansısa separatçı liderlər tərəfindən manipulyasiya predmetinə çevrildi: ”Biz isə onlara elə bir şərait yaratmağa hazır olduğumuzu bildirdik ki, onlar həmin o sahədə qalıb yaşaya bilərdilər və bu, - artıq söylədiyim kimi,- beynəlxalq hüquqa tam uyğun idi. Təbii ki, onlar bu qaydalara uyğun olaraq Azərbaycan vətəndaşlığı üçün müraciət edə bilərdilər. O ki qaldı, onların təhlükəsizliyinə, onların hüququna, bu məsələ də öz həllini tapmışdır. Təhlükəsizlik Azərbaycanın Konstitusiyasına və Azərbaycanın beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq təmin edilməlidir”.







**”BİZİM BAYRAĞIMIZ XANKƏNDİDƏ UCALDILDI”**

Azərbaycan Prezidenti beynəlxalq forumun iştirakçılarını sülh müqaviləsinin detalları barədə məlumatlandıraraq bildirib ki, sülh prosesinin təşəbbüskarı biz olmuşuq: ”İlkin mərhələdə Ermənistan tərəfinin səyləri var idi. Bu, həmin sülh müqaviləsi layihəsinə ”Dağlıq Qaradağ respublikası”nı daxil etmək idi. Biz əlbəttə ki, bunu rədd etdik”. Dövlətimizin başçısı onu da bildirib ki, onlar çalışırdılar ki, müxtəlif mətnlər, formatlar çərçivəsində bunu oraya daxil etsinlər: ”Bizim isə münasibətimiz o idi ki, bu haqda danışa bilmərik, danışmamalıyıq və ərazi bütövlüyünün tanınması qarşılıqlı olmalıdır. Ona görə də biz deyirdik ki, Azərbaycanda erməni azlığı o mətnə daxil ediləcəksə, o zaman Ermənistandan didərgin salınmış azərbaycanlıların da məsələsi oraya daxil edilməlidir və onlar Ermənistana qayıtmalı, orada yaşamalıdırlar, onların hüquqları, təhlükəsizlikləri tam təmin olunmalıdır. Necə ki, Azərbaycanda erməni azlığının hüquqları təmin ediləcək. Təəssüf olsun ki, Ermənistan tərəfi bunu rədd etdi. Bu, məntiqsiz idi. Çünki biz qeyri-adi bir şey təklif etmirdik. Biz qarşılıqlı prinsipi təklif edirdik. Digər variant isə, ümumiyyətlə, bu mövzuya toxunmamaq idi. Sentyabrın 19-da keçirilən antiterror tədbirlərindən sonra mənə elə gəlir ki, bu manеə aradan qalxıb. Biz hər iki azlığı sülh müqaviləsində təsbit edəcəyik və ya bunun haqqında, ümumiyyətlə, danışmayacağıq”.

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğurudur.

”Biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik” - deyə bildirən Prezident diqqətə çatdırıb ki, Ermənistanın ərazisini işğal etmək kimi bir hədəfimiz yoxdur və bəzən əsassız olaraq bizi bunda ittiham edirlər: ”Biz bunu etmək istəsəydik edərdik. Bunu açıq şəkildə bəyan edirəm. İstənilən nöqteyi-nəzərdən Azərbaycan üçün böyük problem deyil. Onlar bir gün ərzində öz silahlarını yerə qoydular və bizim bayrağımız Xankəndidə ucaldıldı. Biz bunu etmək istəmirik. Biz bunu etmiriksə, bu o deməkdir ki, mən bu məsələdə haqlıyam”.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən dərhal sonra dövlətimizin başçısının Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və mütərəqqi siyasət beynəlxalq ictimaiyyətin diqqətindədir. Əlbəttə ki, sülh bütövlükdə dünya insanın arzuladığı nemətdir, dəyərdir. Sülh olan yerdə əmin-amanlıqdan, inkişafdan danışa bilərik. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.

***Zümrüd BAYRAMOVA***



# "Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixi var"

## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif aspektlərinin müzakirəsi və regional məsələlər ətrafında fikir mübadiləsinin aparılması baxımından əhəmiyyəti qeyd edildi. Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu deyərək, ölkələrimizin Azərbaycanın müstəqilliyi illərində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.**

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini, Azərbaycan ərazilərinə silah-sursat və hərbi qulluqçular göndərdiyini, separatizmi dəstəklədiyini qeyd edərək, Azərbaycanın antiterror tədbirlərini öz suveren ərazilərində keçirdiyini, təcavüzkar separatizmə son qoyduğunu və əməliyyatın keçirilməsi zamanı nümunəvi şəkildə beynəlxalq humanitar hüququn tələblərinə riayət etdiyini, mülki insanlara və infrastruktura hər hansı zərərin dəyməmədiyini diqqətə çatdırdı.

Ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, münaqişə başa çatandan və Azərbaycan suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olunması üçün tarixi imkanlar yaranıb və ABŞ da yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə bilər. Prezident İlham Əliyev enerji sahəsində əməkdaşlığı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu və bərpaolunan enerji potensialının inkişafı istiqamətində Xəzərdə və Qara dənizdə həyata keçirilən layihələri qeyd etdi.



Dövlətimizin başçısı regionda Orta Dəhliz üzrə yeni nəqliyyat-logistika imkanlarının yarandığını, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə tərəfdaşlığının daha da genişləndiyini dedi və bu istiqamətdə yeni əməkdaşlıq imkanları barədə danışdı.

Ceyms O'Brayn öz növbəsində ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaşlar olduqlarını vurğuladı. O, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın roluna toxundu, ölkəsinin regionda sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini dedi, bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırdı.

Ceyms O'Brayn Transxəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyi vurğuladı. O, ABŞ-Azərbaycan münasibətlərində gələcəyə baxışın vacibliyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərin irəli aparılması üçün qarşılıqlı səfərlərin bərpa edilməsi müsbət addım kimi dəyərləndirildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Azərbaycan -Türkiyə qardaşlıq münasibətləri uğurla inkişaf edir

## Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 6-da Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Zafer Sırakaya Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun salamlarını Azərbaycan Milli Məclisinin sədrinə çatdırıb. Sahibə Qafarova onun da salamlarını TBMM sədrinə çatdırmağı xahiş edib.***

Söhbət zamanı qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutan Azərbaycan və Türkiyə arasında münasibətlər uğurla inkişaf edir. Dövlət başçılarımızın dostluq və qardaşlıq münasibətləri ölkələrimiz arasında əlaqələrin dinamik inkişafına geniş imkanlar yaradır. Ölkələrimizin liderlərinin siyasi iradəsinin və qətiyyətinin nəticəsidir ki, dövlətlərarası münasibətlər özünün ən yüksək səviyyəsinə - müttəfiqlik səviyyəsinə çatıb.

Görüşdə vurğulanıb ki, bu münasibətlər parlamentlər arasında da əməkdaşlığın daha da genişlənməsini şərtləndirib. Vurğulanıb ki, Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi üzrə hədəfləri müəyyən edən və yol xəritəsi rolunu oynayan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsində parlamentlərarası əlaqələrin inkişafına dair bəndin olması da ölkələrimizin qanunvericilik sahəsində də əməkdaşlığı daha da inkişaf etdirmək niyyətinin göstəricisidir. Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında çoxşaxəli əməkdaşlıq həyata keçirilir. Deputatlarımız ikitərəfli, üçtərəfli və çoxtərəfli formatlarda uğurla fəaliyyət göstərirlər. Söhbət zamanı qardaş ölkələrimizin dövlət qurumları və təsisatları arasında əməkdaşlığın inkişaf etdirilməsinin münasibətlərimizin daha da möhkəmlənməsinə töhfə verdiyi qeyd edilərək, bu mənada ölkələrimizin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlıq əlaqələrinin böyük əhəmiyyət kəsb etdiyi ifadə olunub. Vurğulanıb ki, partiyalar arasında əlaqələrin gücləndirilməsi ölkələrarası münasibətlərin inkişafına mühüm töhfə verir. Milli Məclisin sədri Sahibə Qafarova deyib ki, Azərbaycan parlamenti partiyalar arasında əlaqələrin gücləndirilməsini dəstəkləyir.









Görüşdə hazırda regionda mövcud olan vəziyyət haqqında da fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova dünyada bir sıra gərginliklərin, islamofobiya meyllərinin, beynəlxalq münasibətlərdə ikili standartların mövcud olduğunu xatırladaraq, qeyd edib ki, bəzi təşkilatlarda Azərbaycana və Türkiyəyə qarşı qərəzli, birtərəfli münasibətlərin şahidi oluruq. Milli Məclisin sədri bu cür meyllərə qarşı mübarizədə də birgə əməkdaşlığın önəmini diqqətə çatdırıb. O, Azərbaycan-Türkiyə münasibətlərinin regionda sabitliyə, sülhə və əməkdaşlığa xidmət etdiyini vurğulayıb.

Azərbaycan və Türkiyənin ortaq tarixi, mədəniyyəti, dəyərləri ilə bağlı fikirlərini bildirən Sahibə Qafarova qardaş xalqlarımızı birləşdirən ən mühüm dəyərlərdən biri kimi ailə dəyərlərinin birgə təşviqinin əhəmiyyətini də diqqətə çatdırıb. Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Xalqa bəxş edilən ömür

## Ümummilli Lider Heydər Əliyevin 12 dekabrda vəfatı insanlığın hüzn günüdür

"Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır". Bu fikirləri Ulu Öndərimiz Heydər Əliyev çıxışlarının birində dövlətçiliyin qorunub saxlanması və inkişaf etdirilməsi barədə demişdir. Bəli, dövlət müstəqilliyini qurmaq nə qədər çətindirsə, onu qoruyub, saxlamaq və inkişaf etdirmək ondan da çətindir. Biz bu reallıqla ötən əsrin 90-cı illərin əvvələrində müstəqil dövlət yaratsaq da, onu qoruyub saxlamaqda çox ciddi problemlərlə üzləşməklə görmüşdük. 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmiş, idarəetmə qabiliyyəti aşağı olan ölkələrdə çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun ağırlığı, ölkə hakimiyyətinin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi. Mövcud durum 1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin sədri seçilməsinədək olan mərhələdə daha da kəskinləşdi. Ali Məclisin Sədri seçilən Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıld.








### Ulu Öndər bütün dünya azərbaycanlılarını bir bayraq altında birləşdirə bildi

Həmin dövrdə bütün türk dünyası üçün əlamətdar olan qərarların qəbul edilməsi ilə yadda qaldı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır. Daha bir mühüm addım isə bütün dünya azərbaycanlılarının bir bayraq altında birləşməsinə xidmət edən qərarın verilməsi olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəyliyi bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edib. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib və bütün azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir. Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Ölkədə gərgin və böhranlı vəziyyətdə xalq ümidini dahi siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevə bağlamış, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ulu Öndərin təcrübəsi və siyasi peşəkarlığı sayəsində YAP ölkənin ən böyük və effektiv siyasi qüvvəsinə çevrilmişdir. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını Onun ətrafında birləşdirdi.

### Azərbaycan xalqını qurtuluşa aparan yolun ilk addımı 15 iyuldan başlayır

Xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Dahi Öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi və iyunun 24-dən Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Prezident seçilməsi Azərbaycan xalqını qurtuluşa aparan yolun ilk addımıdır. Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan, həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun". 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmışdır. Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

### Azərbaycan Ulu Öndərin əsasını qoyduğu siyasət nəticəsində dünyada söz və nüfuz sahibinə çevrilib

Faktlara istinadən demək olar ki, 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələr də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən, həmin ilin noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı".

Bu gün Azərbaycan xalqı və bütün dünya azərbaycanlıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.

***İLHAM ƏLİYEV***



# Əzəli torpağa qayıdış və canlanan yeni həyat

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər çalan Azərbaycan bu gün 30 ilə yaxın işğal altında qalmış ərazilərimizdə də abadlıq-quruculuq işlərinə başlayıb, infrastruktur layihələr uğurla icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq". Bəli, şəhər və kəndlərimizə yeni bir həyat gəlib. Tarixi mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Artıq Füzuli, Zəngilan Beynəlxalq Hava Limanlarının açılışı da olub. Bu o deməkdir ki, Azərbaycan qısa bir zamanda keçmiş köçkünlərini öz əzəli torpaqlarında rahat şəraitlə təmin etməkdə davamlı tədbirlərə imza atır. Əlbəttə ki, işğaldan azad olunan ərazilərimiz mənfur düşmən tərəfindən dağıdılsa da, Azərbaycanın iqtisadi gücü, dinamik inkişaf bu yerlərin tezliklə dirçəldilməsində əsas amildir.

### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN MÜASİR




### DÜNYAMIZDA YENİ DÖVRÜ

Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda abadlıq-quruculuq işləri həyata keçirildi. Cənab Prezidentin bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident oraya qayıdacaq insanlara rahat şəraitin yaradılacağını çıxışlarının birində bildirmişdi: "Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf". Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Bu gün böyük abadlıq quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər işğaldan azad olunan ərazilərimizi müasirşəhərə çevirir. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Bəli, artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, daha sonra Laçına, Füzuliyə köç karvanları yola salındı.

Azərbaycanın dilbər guşəsi Qarabağımız və Şərqi Zəngəzur müasir dünyamızda yeni dövrünü yaşayır. Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevriləcəkdir.

### QÜDRƏTLİ VƏ GÜCLÜ AZƏRBAYCAN

Üç il bundan əvvəl tarixin bu günü Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Əlbəttə ki, Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə, eləcə də Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi, çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasından xəbərdir. Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməli dövlət başçımız tərəfindən qoyuldu. Üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq. Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.



Füzuli şəhərində dövlət başçısı tərəfindən inzibati binanın da təməli qoyulub. İnzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

### İLİN SONUNA QƏDƏR

### FÜZULİDƏ TƏQRİBƏN 2 MİNƏ YAXIN İNSAN YAŞAYACAQ

Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli qaynar dövrünü yaşayır. Böyük Qayıdış çərçivəsində əzəli sakinlər doğma yurduna qayıdır. Keçmiş məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıdırlar. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. "Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi" - deyə Prezident bildirmişdir.

İlk köç karvanı ilə 23 ailə doğma şəhərinə qayıtdı. Bu, davamlı olaraq həyata keçirildi. Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Mərhələli şəkildə köçlər davam edir. Bununla da Füzuli şəhərində 308 ailə, yəni 1106 nəfərin daimi məskunlaşması təmin edilib. Bu gün isə Füzuliyə yenidən köç karvanları yol alır. Dövlət başçımızın bildirdiyi kimi, ilin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Müharibədən çıxmış bir dövlət qısa zamanda Böyük Qayıdışın təntənəsini yaşadı. Bu gün işğaldan azad olunan ərazilərimizdə böyük abadlıq, quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər əzəli sakinləri qoynuna alır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan ilə Böyük Britaniya arasında möhkəm dostluq münasibətləri qurulub"

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Böyük Britaniyanın dövlət naziri ilə görüşüb

Dekabrın 6-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Böyük Britaniyanın ixrac məsələləri üzrə dövlət naziri Lord Malcolm Offord ilə görüşüb. Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında qurulan möhkəm dostluq münasibətlərindən və çoxşaxəli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Neft-qaz, ticarət, yaşıl enerjiyə keçid, nəqliyyat, təhsil və digər sahələrdə ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb. Samir Nuriyev Ermənistanın hərbi işğalı dövründə Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi davamlı və prinsipial dəstəyi yüksək qiymətləndirib. Həmçinin Birləşmiş Krallığın beynəlxalq təşkilatlar çərçivəsində tutduğu balanslı mövqe müsbət dəyərləndirilib.

İkitərəfli əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətli rol oynadığı vurğulanaraq, belə səfərlərin gələcəkdə də davam etdirilməsinin vacibliyi qeyd olunub.



Samir Nuriyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələrinin, habelə yeni yaşayış məntəqələrinin salınması istiqamətində işlərin uğurla davam etdiyini diqqətə çatdırıb. Görüşdə işğaldan azad edilmiş ərazilərimizdə Britaniya şirkətlərinin bərpa-quruculuq və yenidənqurma layihələrində iştirakından məmnunluq ifadə olunub və bu əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti qeyd edilib. Xüsusilə Birləşmiş Krallığın Azərbaycanda humanitar minatəmizləmə layihələrinə verdiyi töhfələr təqdir olunub.

Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın dekabrın 7-də Bakıda 6-cı iclasının keçiriləcəyi qeyd edilərək, vacib bir mexanizm kimi komissiyanın növbəti iclasının iki ölkə arasında əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

## Məsuliyyətsizliyin və yanlışlığın təzahürü olan

# "SİYASİ TƏLXƏKLİK"

Məntiqsiz, əsassız və mənasız bəyanatların, fikirlərin ortaya atılması ilə rəsmi İrəvan həmişə olduğu kimi, sülh prosesini sadəcə olaraq, yenə də əngidir. Ermənistanın hazırkı hakimiyyətinin öz məsuliyyətini dərk etmədiyi, yanlışlığı göz önündədir və bu, zərrə qədər də şübhə doğurmur. İşğalçı ölkənin baş naziri Nikol Paşinyanın komandasında təmsil olunan xarici işlər naziri Ararat Mirzoyanın, ATƏT-in Skopyedə keçirilən Nazirlər İclasındakı bəyanatında həyasızcasına absurd fikirlər səsləndirməsi, şərə, böhtana əl atması, yəni, "siyasi təlxəklik" etməsi ilk növbədə, məhz öz məsuliyyətini dərk etməməsinin, eləcə də rəsmi İrəvanın hələ də yanlış yolda olduğunun növbəti təzahürüdür.

Özünün yanlış yolda olması, razılığa gəlməməsi, beynəlxalq hüququn norma və prinsplərinə məhəl qoymaması səbəbindən Ermənistanın qarşılaşdığı fəlakətlərdən ermənilər dərs alanlar kimi qətiyyən görünmürlər. Əks halda, 44 günlük müharibədən lazımi dərs alardılar və ən azından bu ilin sentyabrına qədər Ermənistanın qanunsuz silahlı dəstələrinin Azərbaycan ərazilərində qalmalarına imkan verməzdilər. Əslində, BMT-nin bununla bağlı məlum dörd qətnaməsi olduğu halda, yəni, Ermənistanın silahlı birləşmələrinin ölkəmizin ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə qəbul edildiyi zaman həmin silahlılar çıxarılmalı idilər. Həmin BMT qətnaməsinə baxmayaraq, nəinki 44 günlük müharibədən əvvəl, heç müharibədən sonra da buna əməl etmək kimi bir fikirdə rəsmi İrəvanın olmaması, həmin silahlıların tərksilah edilməsi, ərazilərin onlardan təmizlənməsi üçün Azərbaycan tərəfinin antiterror tədbirləri aparmasını labud etdi və nəticədə də həmin silahlılar ağ bayraq qaldıraraq, təslim olmaq, ərazilərimizi tərk etmək məcburiyyətində qaldılar. Amma bundan da ermənilər deyəsən dərs almaq fikrində deyillər. Çünki dərs almış olsaydılar, hansısa razılıq barədə düşünər, müəyyən bir ortaq məxrəcə gəlmək üçün çalışardılar. Lakin biz görürük ki, rəsmi İrəvan hələ də öz maraqlarını "sırımaq" üçün bütün mümkün tədbirlərə əl atır. Hətta işğalçı ölkə rəsmiləri belə yalan, həqiqətə uyğun olmayan fikirlər və bəyanatlar səsləndirməkdən də çəkinmirlər və bu da nəticə etibarı ilə sülh gündəliyinə öz mənfi təsirini mütəmadi olaraq göstərir. Halbuki məğlub olan bir ölkə hakimiyyəti ilk növbədə müəyyən razılığa gəlməkdə, sülh prosesində özü maraqlı olmalı idi.




Qeyd olunduğu kimi, məğlub olan, özü də rüsvayçı şəkildə təslim olan bir ölkənin hakimiyyəti uyğunsuz bəyanatlarla çıxış etməkdədir. Məsələn, vasitəçisiz danışıqlar barədə müzakirələr getdiyi bir zamanda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın absurd bəyanatlar səsləndirməsi, şərə, böhtana əl atması heç bir normalara sığışmadığı kimi, eyni zamanda, proseslərə də mənfi təsir göstərir. "Dağlıq Qarabağı ermənilərsiz qəbul edən Azərbaycan indi gözünü Ermənistanın suveren ərazisinə dikib", deyə ATƏT-in Skopyedə keçirilən Nazirlər İclasında sayıqlayan Mirzoyan, görünür, qətiyyən münasibətlərin normallaşdırılmasını istəmir. Əks halda, Azərbaycana qara yaxmaq, şər və böhtan atmaq məqsədi ilə belə məsuliyyətsiz fikirlər səsləndirməzdi. Görəsən, həqiqətən də Ararat Mirzoyanın timsalında Ermənistan hakimiyyətində təmsil olunanlar ölkələrinin vəziyyətini, acınacaqlı durumunu və sülhə, danışıqlara məhz onların ehtiyaclarının olduğunu başa düşə bilmirlərmi? Yəni, həqiqətən də Ermənistanın siyasi elitası reallıqları düzgün qiymətləndirə bilmirmi? Bir ölkənin XİN rəhbərinin bu şəkildə absurd bəyanatla çıxış etməsi onu deməyə əsas verir ki, deməli, rəsmi İrəvan hələ də yanlış yolda olduğunun fərqində deyil. Sözsüz ki, özlərinə "ağa" olaraq qəbull etdikləri fövqəlgüclərə arxalanan Ermənistan hakimiyyəti hələ də "ərköyünlük" edir. Amma başa düşmək istəmir ki, Qərbin artıq səbrini daşırır. Çünki heç bir ölkənin Ermənistan qarşısında öhdəliyi yoxdur və bu ölkənin istədiyinə nail olacağını kimsə haylara vəd etməyib. Hər bir halda, İrəvan sınanılır və nə qədər ki, ermənilər bunun fərqində deyillər, çətin ki, sınaqdan üzü ağ çıxalar. Ona görə ki, "ağaları" görürlər ki, ermənilərə "üz verdikcə", dəstək olduqca, onlar "cızıqlarından çıxırlar". Yəni, ən azında müşahidə edilir ki, ermənilər dəstək gördükləri zaman Azərbaycana və hətta regionun digər ölkələrinə qarşı hədsiz dərəcədə absurd bəyanatlar səsləndirirlər. Bir sözlə, Qərb çox yaxşı başa düşür ki, dəstək aldıqları təqdirdə ermənilər sadəcə, "siyasi təlxəklik" etməkdən çəkinmədən ağılsız iddialar irəli sürürlər, özlərinə də hər şeyi rəva bilirlər. Hər halda, "ağaları" buna sonsuza qədər dözüm nümayiş etdirəcək deyil və rəsmi Vaşinqton da, rəsmi Paris də hayların "siyasi təlxəklik" etmələrindən bezdiyi zaman "ərköyünlükləri" də sona çatacaq, üstəlik siyasi varlıqları da.

Doğrudur, Rusiyadan imtina etdiyindən, üz döndərdikdən sonra ABŞ və Fransa üçün Ermənistan çox asan, üstəlik, öz xoşu ilə hədəfə tuş gələn bir "şikar" hesab olunur. Moskvanın himayəsindən, təhlükəsizlik zəmanətindən imtina edən Ermənistanın istənilən anda "ovlanılması" hər iki ölkə üçün də ən məsələsidir. Daha dəqiq desək, onsuz da bu zamana qədər müstəqil və suveren ölkə ola bilməyən Ermənistan "öz ipini" həm amerikalıların, həm də fransızların əlinə verməkdədir və bu şansdan hər iki dövlətin istifadə etməsi üçün hansısa qeyri-adı şəraitə və ssenariyə belə ehtiyac qalmır. Onsuz da hal-hazırda belə rəsmi İrəvan Amerikanın və Fransanın nəzarəti altındadır və bir marionet kimi idarə olunur. Amma bu o demək deyil ki, amerikalılar da, fransızlar da işlərini, güclərini ataraq, ancaq hayların nazı ilə sonsuza qədər oynayacaqlar və istədiklərini də reallaşdıracaqlar. Əgər rəsmi İrəvan amerikalılara və fransızlara arzularını gerçəkləşdirəcək "qızıl balıq" kimi baxırsa, bərk yanılır. Çünki hər iki ölkənin Cənubi Qafqazda öz maraqları, öz planları var və Ermənistan hələlik bir alət olaraq istifadə edilir. Bu vəziyyətdə isə haylar özlərinin hansısa "kölgə" altında olduqları qənaətindədirlər və xislətlərinə uyğun şəkildə bundan istifadə edərək, "siyasi təlxəklik" etməkdə davam edirlər.

Əgər Ermənistan hakimiyyəti vəziyyəti düzgün qiymətləndirsəydi, mütləq Azərbaycanla əlaqələrə üstünlük verər, bunun üçün də sülh danışıqlarına bir addım daha tez nail olmağa çalışardı. Çalışardı ki, onillər boyu təcrid vəziyyətində, marginallaşmış durumda olan bir ölkənin əlaqələrini qurараq, iqtisadi inkişafı üçün zəmin yaratsın. Tamamilə səfalət içərisində olan bir ölkə iyanələrlə, yardımlarla, dilənçi payı ilə mövcudluğunu bir zülümlə saxlamaq niyyətində deyilsə, danışıqlarda, sülh danışıqlarında və münasibətlərin normallaşdırılmasında mütləq maraqlı olmalıdır. Ələlxüsus da, Zəngəzur dəhlizinin məhz Ermənistan ərazisindən keçməsi üçün çalışmalıdır ki, təcrid olunmuş vəziyyətdən çıxsın və heç olmasa bundan sonra iqtisadi inkişafa ümid etsin. Amma biz bunu müşahidə etmirik və görürük ki, Ermənistan tərəfi tamamilə məsuliyyətsiz və ağılsız addımlar atmaqda, oyunbazlıq etməkdə, absurd bəyanatlarla çıxış edərək, danışıqlar prosesinə mane olmaqda davam edir.

Rəsmi İrəvan ən azından, elə məhz ABŞ və Fransa üçün maraqlı bir dövlət olması məqsədi, niyyəti ilə indi çalışmalıdır və özünü təcrid vəziyyətindən çıxarmaq üçün "siyasi təlxəkliyi" bir tərəfə qoyaraq, məsuliyyətli davranışlar sərgiləməli, doğru qərarlar qəbul edərək, sülh danışıqlarına zəmin yaratmalıdır. Sülh danışıqlarına zəmin yaratmalıdır ki, ən azından iqtisadi perspektivi ilə də olsa "ağa" hesab etdiyi ölkəni belə maraqlandırsın. Məsələ burasındadır ki, rəsmi İrəvan şanslarını itirməkdə davam edir və bu ölkəyə maraq da heç gözlənilən görünmür. Çünki Azərbaycan Zəngəzur məsələsi ilə bağlı İrəvanın nə nazına, nə də "siyasi təlxəklik" etməsinə dözmək, səbir və tab etmək məcburiyyətində deyil. Ölkəmiz qonşu İranla sözügedən dəhlizə alternativ layihənin reallaşdırılmasına artıq başlayıb. Yəni, rəsmi Bakı İrəvanın qərarını illərlə gözləyəcək deyil və artıq öz milli maraqları, iqtisadi, siyasi maraqları çərçivəsində hərəkət etməkdədir. Uduzan isə yenə də Ermənistan tərəfidir və haylar tez bir zamanda görəcəklər ki, onların ölkə adlandırdıqları ərazilərə, elə lap özlərinə də ABŞ və Fransa maraq göstərməyəcək. Uzaq başı, tezliklə bu işğalçı ölkənin ərazisində başqa hansısa missiya adı altında Qərb dövlətlərindən yeni hərbi birləşmələr peyda ola bilər ki, bu da erməni cəmiyyəti üçün ciddi narahatlıq deməkdir. Ən azından baş nazir Nikol Paşinyan və onun hakimiyyəti üçün belə bir narahatlıq qətiyyən arzuolunan sayıla bilməz. Çünki Qərbin həmin ölkədə hərbi mövcudluğu Vovayeviç üçün də, onun hakimiyyət komandası üçün də son deməkdir. Hər halda, Qərb Ermənistanın ümidsiz olduğunu qəbul etdikdən, buna tam əmin olduqdan sonra onun siyasi quruluşunu dağıtmağa, ölkəni siyasi oyunlarında əlverişli alətə çevirməyə çalışacaq ki, bu zaman nə Paşinyana, nə də onun hakimiyyət komandasında təmsil olunan və ATƏT-in Skopyedə keçirilən nazirlər toplantısında "siyasi təlxəklik" edən Mirzoyana ehtiyac duyulmayacaq və nəzərə alsaq ki, erməni cəmiyyəti belə onlardan hesab sormaq arzusundadır, deməli, onların heç birinin sonu belə görünmür.

Görünən odur ki, hazırda Ermənistanın siyasi elitasının məqsədi heç də həmin ölkənin iqtisadi və siyasi inkişafına nail olmaq deyil. Əks halda, bunu heç olmasa kimsə müşahidə edərdi. Müşahidə edərdi ki, rəsmi İrəvan bütün ambisiyaları, düşmənçilikləri, uydurma mifləri kənara qoyub həmin ölkənin gələcəyi barədə düşünür, amma Ermənistanın hazırkı hakimiyyətinin ancaq öz maraqları, öz istək və niyyətləri üçün çalışdığını hər kəs görür. Hələ də Qərbin yaratdığı şansdan istifadə edərək ərköyünlük etmək imkanlarından Paşinyan da, Mirzoyanın timsalında onun komanda üzvləri də istifadə edirlər. Bir sözlə, rəsmi İrəvan erməni diasporlarının resurslarından, eləcə də "ağa"larının resurslarından axmaqcasına istifadə edir və öz çirkin siyasətinə xidmət edən "siyasi təlxəklik" etməyi Ermənistanın maraqlarından üstün tutur.

***İnam Hacıyev***





# Qürurla verilən vəd qətiyyətlə gerçəkləşdirilir!

## İLHAM ƏLİYEV: "Məcburi köçkünlər üçün maksimal həyat şəraitinin yaradılması üçün əlimizdən gələni edirik"

**"Biz də çalışırıq əlimizdən gələni edək ki, məcburi köçkünlər üçün maksimal həyat şəraiti yaradılsın, onlar buna layiqdirlər. Onlar, həmçinin psixoloji sarsıntı keçiriblər". Bu sözləri Prezident İlham Əliyev ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bildirib.**

Prezident İlham Əliyev Forumda çıxışı zamanı onu da vurğulayıb ki, keçmiş məcburi köçkünləri layiqli iş yerləri ilə təmin edə bilərik, şərait yarada bilərik: "Yeri gəlmişkən söyləyim ki, həmin sahələrdə məşğulluq məhz vacib məsələdir. Bir halda ki, biz qayıdış prosesini planlı həyata keçiririk və qayıtmış insanların əksər hissəsi artıq bu iş yerlərinə malikdir, bu onu göstərir ki, tətbiq edilmiş yanaşma tamamilə əhatəlidir".

İkinci Qarabağ müharibəsindən sonrakı illər ərzində Qarabağ ermənilərini öz vətəndaşlarımız hesab etdiyimizi xatırladan dövlətimizin başçısı bildirib: "Bu, hər hansısa separatçı liderlər tərəfindən manipulyasiya predmetinə çevrildi. Biz isə onlara elə bir şərait yaratmağa hazır olduğumuzu bildirdik ki, onlar həmin o sahədə qalıb yaşaya bilərdilər və bu, - artıq söylədiyim kimi,- beynəlxalq hüquqa tam uyğun idi. Təbii ki, onlar bu qaydalara uyğun olaraq Azərbaycan vətəndaşlığı üçün müraciət edə bilərdilər. O ki qaldı, onların təhlükəsizliyinə, onların hüququna, bu məsələ də öz həllini tapmışdır. Təhlükəsizlik Azərbaycanın Konstitusiyasına və Azərbaycanın beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq təmin edilməlidir".

Dövlətimizin başçısı minalar məsələsinə də toxunaraq deyib: "Biz istəyirik ki, proses mümkün qədər tez getsin. Lakin biz anlayırıq ki, ən yaxşı memarlıq təcrübəsinə əsaslanaraq, ən yaxşı texnologiyalardan irəli gələrək, yaşıl texnologiyaları tətbiq etməklə və həmçinin ən yaxşı şəraitləri yaratmaqla buna nail olmalıyıq".

### BU GÜN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR AZADDIR, QARABAĞ DİRÇƏLİR, ZƏNGƏZUR DİRÇƏLİR, QÜRURLA ÖZ DOĞMA TORPAQLARIMIZI QURURUQ, YARADIRIQ

Bəli, bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq. Deyilənləri təsdiqləyən amil 2023-cü ilin iyun ayında dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra xərclər 3 milyard manat artırılaraq 36 milyard manata çatdırılmasıdır ki, bu da müstəqil Azərbaycanın tarixində rekord göstəricidir. Xərclərə əlavə edilən 3 milyard manatın təqribən 1,8 milyardlıq hissəsinin Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə ayırılması isə belə bir həqiqətin növbəti təsdiqi oldu ki, işğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın milli prioritetidir.

### ÜMUMİLİKDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL PROBLEMLƏRİNİN HƏLLİ MƏQSƏDİLƏ SON 20 İLDƏ 5,1 MİLYARD MANATDAN ÇOX VƏSAİT AYRILIB

Prezident İlham Əliyev hələ 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. 2006-cı ildə Bərdə və Ağcabədi rayonlarındakı 4 çadır düşərgəsinin, 2007-ci ilin dekabrında isə Saatlı və Sabirabad rayonları ərazisindəki 3 çadır düşərgəsinin ləğvi də təmin edilərək Prezident İlham Əliyevin tapşırığı vaxtından bir il əvvəl yerinə yetirildi. 2004-cü ildə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ölkəmizdə qaçqın və məcburi köçkünlərə dövlət qayğısının növbəti təzahürü idi. Ümumilikdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə 5,1 milyard manatdan çox vəsait ayrılıb ki, bunun da 2 milyard manatdan çoxu mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Bu illərdə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,6 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə artıb. Əmək qabiliyyətli 380 min məcburi köçkündən 160 mindən çoxu daimi işlə təmin edilib, 200 min nəfəri isə mövsümi işlərə cəlb olunub.

### DÜNYADA AZƏRBAYCAN QƏDƏR QAÇQINLARA DİQQƏT YETİRİLMİR

Bəli, bu, reallıqdır. Bu reallığı bir anlığa beynəlxalq təşkilatların hesabatlarına diqqət yetirməklə aydın görmək olar. Rəsmi məlumata əsasən, hazırda dünyanın bütün münaqişə zonalarında 1 qaçqına 1 ildə sərf olunan ən yüksək vəsait Azərbaycandadır. Elə buna görədir ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 2012-ci ildə Azərbaycanı özünün İcraiyyə Komitəsinə üzv seçib. İndi beynəlxalq təşkilatlar tərəfindən dinamik sosial-iqtisadi inkişaf yolunda davamlı uğurların müəllifi olan Azərbaycanın qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində gördüyü irimiqyaslı işləri dünyanın oxşar problemlə qarşılaşan ölkələri üçün nümunə hesab edilir. Bu isə Ulu Öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi strategiyasını uğula həyata keçirən Prezident İlham Əliyevin sözügedən istiqamətdə tədbirləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirməsinin, doğma ocaqlarından didərgin salınan soydaşlarımızın bütün problemlərinin Azərbaycan dövlətinin gündəlik qayğısına çevrilməsinin bariz ifadəsidir.

Verilən sərəncam və fərmanlar, real nəticələr... Və indiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılması deyilənlərin təsdiqidir. Ən əsası isə, 2007-ci ildən etibarən Azərbaycanda çadır düşərgələrinin ləğvi prosesi başladı və bu proses çox uğurla başa çatdı. Qeyd etdiyimiz kimi, qaçqın və məcburi köçkünlər üçün həm paytaxtda, həm paytaxtyanı qəsəbələrdə, həm də rayon və kəndlərdə böyük qəsəbələr salınıb. Kürdəxanıda, Qaradağ rayonunda, Abşeronun Masazır, Mehdiabad, Sabunçunun Ramana qəsəbələrində müasir tipli binalar inşa olunub. İndiyə qədər azad edilən ərazilərimizdə qəsəbələr salınıb. Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb. Yüz əlli evlik Cocuq Mərcanlıda müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Prezident İlham Əliyev dəfələrlə "Bizim əsas məqsədimiz məcburi köçkün soydaşlarımızı doğma yurd-yuvalarına qaytarmaq və orada onların əvvəlkindən də yaxşı şəraitini təmin etməkdir" deyib. Artıq 20 ildir Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial siyasət bu sahədə inqilabi dəyişikliklərə səbəb olub. Xüsusilə, məcburi köçkünlərlə bağlı atdığı növbəti humanist addımında Prezident sosial dövlət prinsiplərinə üstünlük verdiyini və islahatlar prosesinin dönməzliyini göstərmiş oldu.

### İNDİYƏDƏK 300 MİNƏ YAXIN QAÇQININ VƏ MƏCBURİ KÖÇKÜNÜN MƏNZİL ŞƏRAİTİ YAXŞILAŞDIRILIB

Göründüyü kimi, indiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında yaşanan sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına rəvac verib. Əlverişli sosial atmosferin yaradılması, bütün ölkə miqyasında tərəqqinin sürətlənməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluqla təmin edilməsi bu gün məcburi köçkünlərin də davamlı, sabit gəlirləri üçün əsas yaradıb. Onların qarşılaşdıqları mənzil probleminin həllinə də dövlət ən yüksək səviyyədə daim böyük diqqət və qayğı göstərib. Elə bunun nəticəsidir ki, təkcə keçən il 5 min 901 ailə və ya 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bundan əlavə, müvəqqəti məskunlaşma yerlərində aparılmış təmir işləri nəticəsində 158 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Son 19 il ərzində qaçqın və məcbururi köçkünlər üçün ölkənin 30-dan çox şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,5 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik fərdi evlərdən, çoxmərtəbəli binalardan ibarət bu sahədə aparılan işlər nəticəsində artıq 300 min qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülüb, 103 yeni qəsəbə salınıb. Bunun da 3,3 milyon kvadrat metr yaşayış sahəsinə malik 97-si və yaxud 95 faizi son 15 ildə inşa edilib.

### AZƏRBAYCANIN HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN YARDIM ALMADAN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURU ÖZ İQTİSADİ QÜDRƏTİ HESABINA YENİDƏN QURUR

Hazırda möhtəşəm tarixi qələbənin sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir və Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır.

Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

# Müasir Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir

*Xaçmaz rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Xaçmaz rayon təşkilatı rayon Heydər Əliyev Mərkəzində dekabrın 6-da tədbir keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov Ulu Öndər Heydər



Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O vurğulayıb ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər ölkəmizin tarixinə sosial-iqtisadi yüksəliş mərhələləri kimi daxil olub. Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir. Dünya Azərbaycanlıları Ümummilli Liderin əziz xatirəsini daim uca tutur və minnətdarlıqla yad edir.

Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı Elnur Rzayev qeyd edib ki, Azərbaycan xalqının dövlətçilik ənənələrinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri var. Onun sözlərinə görə, müasir Azərbaycan tarixinin parlaq səhifələri, heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin adı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Dahi rəhbər bütün həyatını Azərbaycanın tərəqqisinə və xalqın xoşbəxtliyinə həsr edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətindən, onun fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının yaradılmasından, respublikamızın dünya məkanında öz layiqli yerini tutmasından, ölkəmizin bütün sahələrində baş vermiş müsbət dəyişikliklərdən söhbət açıb. Vurğulanıb ki, müstəqil Azərbaycanın qazandığı bütün müvəffəqiyyətlər Ümummilli Lider Heydər Əliyevin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir.



YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva qeyd edib ki, tarixin yaddaşında əbədi iz qoymaq hər bir insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu, yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqın xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev söyləyib ki, Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyin gücləndirilməsinə və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına misilsiz töh-



fələr verib, xalqımızın qəlbində əbədiyaşarlıq qazanıb. Azərbaycanın bugünkü uğurları Ulu Öndər tərəfindən əsası qoyulan milli inkişaf strategiyasının nəticəsidir. Naqif Həmzəyev hazırda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin bu siyasi irsi uğurla davam etdirdiyini diqqətə çatdırıb. Partiya veteranı şair Telman Təravət davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın Heydər Əliyev ideyalarının təntənəsi olduğunu deyib, Ümummilli Liderə həsr olunan şeir səsləndirib.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.



# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmət-



lərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il dekabrın 6-da YAP Qaradağ rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Qaradağ rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# Ermənistan varlığını itirə bilər

**Cənubi Qafqazda dəyişən geosiyasi vəziyyət Ermənistanı dalana dirəyib və indi ermənilər əzəli müttəfiqindən üz döndərmək qərarına gəlib. Rusiyadan canını qurtarmaq üçün siyasi şantaja əl atan Ermənistan Qərblə əməkdaşlığı bir qədər də gücləndirib. İndi ABŞ və Fransanın dəstəklədiyi Ermənistan açıq-aşkar silahlandırılır. Qərbin bu siyasəti regionda sülhü təhdid altına alır və müharibə riskini artırır.**

## Ermənistanın Rusiyadan üz döndərməsinin əsas səbəbi 2-ci Qarabağ müharibəsində üzləşdiyi acı məğlubiyyətdir

Rusiyalı siyasi şərhçi Qalina Mixaylova Ermənistan mətbuatına müsahibəsində bəzi məqamlara toxunub və ermənilərin düşdüyü vəziyyəti şərh edib. Politoloq bildirib ki, Ermənistanın Rusiyadan üz döndərməsinin əsas səbəbi 2-ci Qarabağ müharibəsində üzləşdiyi acı məğlubiyyətdir:



"İkinci Qarabağ müharibəsində Ermənistan gözləyirdi ki, Rusiya onun köməyinə gələcək və ermənilər tərəfdə vuruşacaq. Amma bu, baş vermədi və Rusiya praktiki olaraq müharibənin gedişində heç nəylə yadda qalmadı, ermənilərin də çağırışına etinasız yanaşdı. Bundan sonra Rusiyanın mövqeyi tam bəlli oldu və müharibə Ermənistanın məğlubiyyəti ilə nəticələndi".

Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması məsələsinə toxunan Mixaylova bildirib ki, Rusiya Cənubi Qafqazda Gürcüstanı çoxdan itirib: "İndi növbə Ermənistanındır və çox güman ki, Ermənistan da Rusiyanın əlindən sivişib çıxacaq. Ermənistanın Rusiyadan üz döndərməsinin kökündə 2-ci Qarabağ müharibəsinin nəticələri dayanır və ermənilər daha ruslara güvənmir. Rusiya sülhməramlıları Laçın dəhlizində üzərilərinə düşən missiyanı yerinə yetirə bilmədilər. Üstəlik, Qarabağdan ermənilərin kütləvi köçü başlandı. İndi sual yaranır, Ermənistan nə etməlidir? Cavab eynidir, ermənilər təhlükəsizliklərini başqa ölkələrdə axtarmalıdırlar".

## Vaşinqton üçün Ermənistan məsələsi axırıncı yerdə dayanır

Daha sonra ABŞ-Azərbaycan münasibətlərinə toxunan Mixaylova bildirib ki, Amerika özünü dünyanın ağası hesab edir və onlar dövlətlər arasındakı münasibətlərdə birbaşa iştirak etmək istəyirlər: "Vaşinqton üçün Ermənistan məsələsi axırıncı yerdə dayanır. Məsələ burasındadır ki, erməni məsələsi təkcə Vaşinqtonda deyil, Avropa Birliyi ölkələrində də arxa plandadır. Sizə bir məsələni də deyim, hətta onlar Qarabağdan köçən erməniləri də çoxdan unudublar. İsrail-HƏMAS müharibəsi Ermənistan-Azərbaycan münaqişəsini kölgədə qoyub və Qərb üçün bu, o qədər də maraqlı deyil. Dünya KİV-nə də nəzər yetirsəniz, bu məsələ aydın görünəcək. Deməli, Amerika üçün Ermənistan məsələsi o qədər də aktual deyil. Ermənistan müttəfiqi olmadan Türkiyə və Azərbaycan kimi güclü dövlətlərin arasında, sadəcə, öz varlığını itirə bilər. Bu ölkələrin arasında Ermənistan beynəlxalq yetim görkəmindədir".

**Afət Tahirqızı**

# Ulu Öndər hətta imkansızı reallığa çevirməyi bacaran böyük dövlət xadimi idi

**Dünyada tarix yazan dahilərin gücü ondadır ki, onlar həlli imkansız görünən qlobal məsələləri də reallığa çevirməyi bacarıblar. Elə məhz buna görə də böyük miqyasda bütün bəşəriyyətin, kiçik miqyasda isə xalqların, onlara güvəni davamlı olub. Belə dahilər cəmiyyətlərin lokomotivi, onların tərəqqisi üçün aparıcı qüvvə olublar. O xalqlar bədbəxt və cahildilər ki, dahilər sarıdan həmişə kasadlıq çəkiblər. Ancaq çox şükürlər olsun ki, Azərbaycan xalqı həm min illər öncə, həm də çağdaş dövrümüzdə dahiləri ilə özünü ən ciddi bəlalardan, təhlükələrdən qoruyaraq dünyada layiqli yerini və varlığını qoruya bilib.**



Bəli, məhz bu gün çağdaş və güclü Azərbaycandan danışanda birmənalı olaraq ulu öndər Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qoruması və inkişafı istiqamətindəki əvəzolunmaz siyasi fəaliyyəti nəzərə çarpır.Təbii ki, Ulu Öndərin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun



*Vüsal Hüseynov*
*YAP Xocavənd rayon təşkilatının sədri*

Sovetlər İttifaqı dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. O illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Onunla bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildiriblər. Vurğulayıblar ki, Ulu Öndərin Azərbaycana rəhbərliyi ölkəmizin tarixində yeni mərhələ olub. Həmin dövrə kimi, Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Amma respublikamız yerüstü, yeraltı sərvətlərinin zənginliyi ilə dünyada ön cərgələrdə idi. Xüsusilə Azərbaycan SSR-i Sovetlər İttifaqında ucqar milli əyalətlərdən biri kimi xarakterizə edilirdi. Məhz 1969-cu ilin 14 iyul tarixli plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycan tarixində sürətli inkişaf dövrünə qədəm qoymuş oldu. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edildi. Kənd təsərrüfatı sürətlə inkişaf etdi. Xüsusilə elm və təhsil istiqamətində böyük işlər həyata keçirildi.

Bəli Ulu Öndərin taleyinə xilaskarlıq missiyası yazılmışdı. Ona görə ki, məhz Onun ikinci dəfə, həm də xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması ölkəmizin müstəqillik qazandığı lakin onun itirilməsi təhlükəsi yarandığı çətin və mürəkkəb illərə təsadüf etdi. Məlumdur ki, 1990-cı illər Azərbaycan xalqının tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi düşüb. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar.

17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üçrəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqillik uğrunda mübarizə tariximizin ən parlaq səhifəsidir və bununla da Milli azərbaycançılıq ideologiyasının inkişaf dövrü başlandı. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu, bu yolda heç bir çətinlikdən, qadağadan qorxub çəkinmədi. Yalnız xalqına, millətinə sonsuz sədaqəti, məhəbbəti olan liderlər belə qətiyyətli addımlar atmağa qadirdilər.

Yeni müstəqillik yoluna qədəm qoyan Azərbaycanda dövlətçiliyi qoruyub saxlamaq üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gətirilməsi olduqca vacib idi və xalqımız haqlı olaraq böyük və sədaqətli övladına müraciət etdi. Ulu öndər Xalqımızın arzularını ifadə edərək 1993-cü ildə Bakıya gəldi və onun Azərbaycanda siyasi hakimiyyətin tamamilə fərqli, həlledici bir dövrü başlandı. Bu illər elə mürəkkəb dövr idi ki, ölkədə anarxiya, xaos baş alıb gedir, sərhəd bölgələrimiz təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalırdı. İqtisadiyyatı dağılmış, ordusunu yaratmağa macal tapmamış bir ölkəyə rəhbərlik etmək, sözün həqiqi mənasında, böyük məsuliyyət tələb edirdi. Məhz Heydər Əliyev belə bir məsuliyyətin öhdəsindən gələ bilərdi və gəldi də.

Bəli, ilk gündən bu daha dövlət adamı öz xalqına arxalandı. Azərbacan xalqı da ona həm mənəvi, həm də siyasi dəstəyini əsirgəmədi. Bir sözlə milli birlikyin təməli qoyuldu. Ulu Öndər ölkə gənclərinə müraciət etdi. Müraciətində Vətənimizin təhlükədə olduğunu izah edərək millətin, dövlətin gənclərə də güvəndiyini bildirdi. Məhz bu müraciətdən ruhlanan on minlərlə Azərbacan gənci öz doğma torpağına işğalçı Ermənistandan qorumaq üçün qanlı savaşların getdiyi cəbşə xəttinə yollandılar. Ona görə ki, artıq xalq anlayırdı ki, ölkəyə bacarıqla rəhbər, əyilməz Sərkərdə rəhbərlik edir.

Hərbi ekspertlərin sözlərinə görə, ulu öndər Heydər Əliyevin ordu quruculuğunda qısa zamanda həyata keçirdiyi islahatlar kütləvi cinayət hallarının, xüsusən də fərarilik kimi qatı cinayətin qarşısını aldı. Məhz dövlət başçısının təşəbbüsü ilə Milli Məclis bir neçə dəfə Amnistiya aktı qəbul etdi və minlərlə gənc həbsxanadan azadlığa qovuşdu. Sonradan onların bir çoxu öz günahlarını qanları ilə yudu, Vətənimizin düşməndən qorunması uğrunda döyüşlərdə iştirak etdi. Bax, budur, xalqa rəhbərlik nümunəsi, humanizm dəyərlərinə sədaqət, bağışlamaq və etibar etmək təcrübəsi.

Ölkəmizin müstəqillik dövründə Ulu Öndərin həyata keçirdiyi çox mühüm islahatlar sırasında ordu quruculuğu öndə gəlirdi. Belə ki, 1994-cü ilin qışında Azərbaycan Ordusunun cəbhədəki ilk uğurlu əməliyyatları ordu quruculuğundakı il işartılar idi. Qanlı savaşların getdiyi səngərlərə, kəndlərə baş çəkən Ali Baş Komandan əsgər və zabitlərlə görüşüb onları müqəddəs bir amal naminə - gənc müstəqil Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda mübarizəyə səsləyirdi. Bu çağrışlardan ruhlanan hərbçilərimizin gücünə güc qatılırdı.

Qeyd edək ki, həmin döyüşlərdə öndə gedən komandirlərin əksəriyyəti isə SSRİ dönəmində Bakıda min-bir əzab və çətinliklə yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri idi. Dahi siyasətçi həmin təhsil ocağının ildönümü mərasimlərindən birində salonda əyləşən zabitlərə, kursantlara xitabən demişdi ki, sizlərə baxanda sonsuz fərəh hissi duyuram ki, mən Azərbaycanda belə bir məktəb yaratdım və bu məktəbin yetirmələri mənə doğma övladlarım qədər əzizdir.

Ulu Öndər Azərbaycan dövləti və xalqı üçün böyük məsuliyyət yükünü öz çiyinlərinə götürəndə yaxşı bilirdi ki, onu hansı təhlükələr gözləyir. Ancaq ondakı Vətən və xalq sevgisi o qədər böyük idi ki, həyatını qurban verməyə hazır idi. Çıxışlarında həm də kövrələrək deyirdi ki, mən həyatımın qalan hissəsini də Vətənimə və xalqıma qurban verməyə hazıram. Təki müstəqilliyimiz daim, əbədi olsun. Ulu Öndər üçün Azərbaycanın müstəqilliyi və qüdrətli ölkəyə çevrilməsi həyatının əsas qayəsi idi. Ona görə də daim öz iş otağında sutkanın hətta 15-20 saatını işləməkdə davam edirdi.

Ulu Öndərin siyasi fəaliyyəti o qədər möhtəşəm və mükəmməl idi ki, hətta xarici siyasi şərhçilər, məşhur dövlət xadimləri Onu dünyanın və tarixin ən böyük Sərkərdələri ilə eyni sırada görürdülər. Bəli, xalqımızın Azərbaycan xalqının bəxti onda gətirmişdi ki, XX əsrin ikinci yarısında millətin lideri Heydər Əlirza oğlu Əliyev oldu." Ulu Öndərin liderlik formulunun əvəzedilməzliyini əks etdirən kəlamlar, aforizmlər tanınmış ictimai-siyasi xadimlərin onun xidmətlərinə, siyasətinə verdikləri dəyərdir. Amerika tarixində Corc Vaşinqtona, Hindistanda Mahatma Qandiyə, Türkiyədə Mustafa Kamal Atatürkə, Fransada Şarl-de Qola xalqlarının yaddaşında əbədi yaşam qisməti nəsib edən Tanrı Azərbaycan xalqına xilaskarlıq missiyasını yerinə yetirən ulu öndər Heydər Əliyev şəxsiyyətini bəxş etmişdir. Ulu Öndərin onlardan ən böyük fərqi onda idi ki, O, xalqının xilsakarlıq missiyasını ayrı-ayrı dövrlərdə və cəmiyyətlərdə həm də iki dəfə uğurla həyata keçirmişdi. Onun Azərbaycan üçün gördüyü işlər, xalqına göstərdiyi xidmətlər o qədər böyük və misilsizdir ki, min illər keçsə də bu dahi insan qəlblərdə yaşayacaqdır. Bəli, Azərbaycan olduqca böyük təbii ehtiyatlara malik bir ölkədir. Ancaq xalqımızın ən böyük sərvəti isə vətənsevərliyi və müdrikliyi, qətiyyəti və sarsılmazlığı ilə Azərbaycanı hər növ təhlükələrdən qoruyaraq onu qüdrətli dövlət edən böyük şəxsiyyət Heydər Əliyev idi.

Azərbacanın hazırki, qüdrətli mövqeyi bir daha təsdiq edir ki, bu müdrik şəxsiyyətin ali dövlət idarəçiliyi ilə formalaşan Azərbaycan Onun simasında dünyaya əsl Lideriliyn xarakterik fəlsəfəsini təqdim etdi. Məhz Onun yeniliyə hesablanmış müdrik siyasi fəaliyyəti ölkəmizdəki problemlərin həllinə kömək edirdi. Ona görə də deyilirdi ki, Heydər Əliyevin hazırladığı inkişaf konsepsiyası milli maraqların istehkamıdır. Hakimiyyətə qayıtdığı ilk gündən Azərbaycanın gələcək yolunu demokratik islahatların tətbiqi ilə müəyyənləşdirən Ulu Öndər bu niyyətini də gerçəkləşdirdi. Ölkədə söz, mətbuat, vicdan azadlığı, plüralizm üçün sərbəst mühit yaradıldı. Respublikamız sözdə deyil, əməldə xalqların birgə yaşadığı tolerant ölkə olduğunu bütün millətlərə bəyan etdi. Heç təsadüfi deyil ki, bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu nəinki ləyaqətlə, hətta daha böyük təntənə ilə davam etdirir. Bu gün işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Azərbaycan bayraqlarının dalğalanması, xüsusilə 30 ildən artıqdır ki, teroorçu və separatçıların qanlı yuvasına çevrilmiş Xankədidi də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə keçirilən möhtəşəm hərbi parad Ulu öndərin arzusunun, vəsiyyətinin gerçəkləşməsi idi.

Bəli, Azərbaycan xalqı bundan sonra da Ulu Öndərin dəyərli ideyaları ilə yeni inkişaf mərhələlərinə qədəm qoyacaq. Çünki bu ideyalar işıqlıdır, gələcəyə yönəlmiş inkişafların təməl prinsipidir. Ona görə də tam əminliklə deyə bilərik ki, xalqımız Prezident İlham Əliyevin sərkərdəlik fəaliyyəti ilə bundan sonra da daha qüdrətli Azərbaycanı yaratmağa qadirdir.

# Paşinyandan "ikili agent" gedişi

*Qərbin və Rusiyanın istəklərini eyni vaxtda yerinə yetirmək üçün son addım*

**Ermənistan hakimiyyəti keçmiş "Dağlıq Qarabağ"ı tarixin arxivinə göndərmək məcburiyyətində qaldığını gizlətmir. Qarabağın işğalı, dünyanın dörd bir yanından ermənilərin bu ərazilərə məqsədli şəkildə köçürülməsi, demoqrafik vəziyyətin ermənilərin xeyirinə dəyişməklə dünya birliyində müstəqillik iddiasının tez və tərəddüdsüz qəbul edilməsi, atəşkəs dövründə qondarma "dövlətin" tanıdılmasının fiaskoya uğraması, keçirilən görüşlər, müzakirələr, Minsk qrupunun əhəmiyyətsiz səfərləri, II Qarabağ müharibəsi, itkilər, silahlıların bölgəni tərk etməsi üçün verilən imkandan istifadə edilməməsi, rəsmi Bakının təklif və tələblərinin dəyərləndirilməməsi, "Qarabağ klanı" tərəfindən erməni əhalinin zorla Ermənistana köçürülməsi təkzib edilməyən faktlardır.**



Bütün bunlar dünyanın gözü qarşısında baş verib. Ermənistanda da bunun fərqindədirlər. Baş nazir Paşinyanın son addımları Azərbaycan tərəfinin maraqları ilə üst-üstə düşmüş kimi görünə bilər. Hətta bəziləri Paşinyanı "yaxşı adam" da adlandıra bilər. Amma məsələ heç də düşündüyümüz kimi deyil. Azərbaycanın hərb meydanında qazandıqları və siyasi gedişləri Ermənistanı "mələyə" döndərib. Atalar yaxşı deyib, "zor şəriətlə yarıdır".





Regionda yeni reallıqlar yaranıb. Paşinyan hakimiyyəti daxildən nə qədər basqı olsa da, xarici havadarları nə qədər təhrikedici, şirnikləndirici üsullara əl atsalar da, hələ ki, astagəllik edir. Həm Qərbin, həm də Rusiyanın istəklərini yerinə yetirirmiş kimi görünməyə çalışır. Tərəddüd edir, ayaq altında qalmaq istəmir. Qərb dairələrində belə bir düşüncə hakim idi ki, Rusiyanın başı nə qədər Ukrayna "kampaniyası"na qarışıb, Cənubi Qafqazı ələ keçirə bilərlər. Moskva isə Qərb üçün gözlənilməz sürpriz hazırladı və artıq iki aya yaxındır ki, Yaxın Şərqdə uzun illərdir yanan, hərdən öləziyən İsrail-HƏMAS (Fələstin) müharibəsini İranla birgə hərəkət edərək alovlandırdı. Düzdür, həm Qərb, həm də Rusiya daha çox bir cəbhədə döyüşməyə üstünlük verirlər, ikinci cəbhənin açılmasını heç istəmirlər. Amma buna getməyə məcbur olurlar, cavab da özünü çox gözləmir.

Paşinyanı daxili siyasətdə ən çox narahat edən Azərbaycan həbsxanalarına düşmüş hərbçilər və separatçı qurumun "rəhbərlərinin" azad edilməsidir. Amma, necə? Bakının addımları tam qanunidir, beynəlxalq hüquq da Azərbaycanın yanındadır. Erməni Milli Konqresinin sədr müavini Levon Zurabyanın sözlərinə görə, Ermənistan hakimiyyəti qanunsuz "DQR"in Azərbaycan həbsxanasına düşmüş keçmiş "rəhbərləri"ni taleyin ixtiyarına buraxıb. Bu yanaşma müxalifətin Paşinyana qarşı mübarizə aparması üçün bəhanədir. Zurabyan hesab edir ki, baş nazir Nikol Paşinyanın komandası "DQR"in keçmiş "liderləri"ndən biri Ruben Vardanyanın həbsindən istifadə edərək onunla əlaqəli qurumlara təzyiq göstərir.

Azərbaycanda ümumilikdə səkkiz Qarabağ "lideri" həbsdədir: "dövlət naziri" Ruben Vardanyan, Qarabağdakı qanunsuz silahlı birləşmələrin keçmiş komandiri Levon Mnatsakanyan, onun keçmiş müavini David Manukyan, keçmiş "xarici işlər naziri" David Babayan, "parlament"in keçmiş "sədri" David İşxanyan, "eks-prezidentlər" Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan. Erməni mediası onları əsir adlandırır, lakin Bakı bu insanları terrorçu hesab edir. O cümlədən, "DQR" "rəhbərliyi" terrorizmi maliyyələşdirməkdə, qanunsuz silahlı birləşmələr yaratmaqda, təcavüzkar müharibə aparmaqda ittiham olunur. Azərbaycan qanunlarına görə, onları ömürlük həbs gözləyir.

Onların vəziyyəti haqqında praktiki olaraq heç bir məlumat yoxdur. Məlumdur ki, Vardanyan vəkillə təmin olunub və vəkili onun ailə üzvləri seçib. Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyeva onun səhhətində heç bir problemin olmadığını, qohumları ilə telefonla əlaqə saxladığını və ümumiyyətlə, saxlanma şəraitindən şikayətinin olmadığını deyib. "DQR" "parlament"inin keçmiş "deputat"ı David Qalstyan jurnalistlərə bildirib ki, digər məhbuslar da şikayət etmirlər və qohumları ilə əlaqə saxlaya bilirlər. "Qarabağın "liderləri" vaxtaşırı xatırlansa da, bu, Ermənistan hakimiyyəti üçün prioritet vəzifə deyil. Onların bəzilərində Paşinyanın komandası özləri üçün təhlükə görür, ona görə də bu insanların indi İrəvanda deyil, Azərbaycan həbsxanasında olması hətta onlar üçün əlverişli ola bilər", deyən Strateji Araşdırmalar və Təşəbbüslər üzrə Analitik Mərkəzin rəhbəri Hayk Xalatyana deyib.

Bu arada Paşinyan iddia edib ki, 1996-cı ildən bəri kənar oyunçular Qarabağ məsələsindən Ermənistan dövlətçiliyinin inkişafının qarşısını almaq üçün rıçaq kimi istifadə ediblər. Guya onlara "DQR" lazım idi ki, Ermənistan müstəqil dövlət kimi mövcud olmasın. Yada salaq ki, ATƏT-in Lissabon sammiti həmin il baş tutdu və bu toplantıda İrəvanın razılığı olmadan Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması, onun geniş muxtariyyət almalı olması qərara alındı. İndiki mərhələdə Ermənistan hakimiyyəti hətta Qarabağla bağlı xatirələrdən də mümkün qədər təcrid etməyə çalışır. Beləliklə, parlamentin spikeri Alen Simonyan əmindir ki, Qarabağda dövlətçiliyin yenidən yaradılması cəhdi İrəvanın təhlükəsizliyinə birbaşa təhdid və zərbəyə çevriləcək. Bundan başqa, Ermənistan prezidenti Vaaqn Xaçaturyan ölkədə DQR-in dövlət hakimiyyəti institutlarının fəaliyyət göstərməyəcəyini bəyan edib. "Qarabağın dövlət qurumları" niyə hərəkətə keçəcək? Ermənistan Respublikası var və onun institutları fəaliyyət göstərir", - Xaçaturyan bildirib.

Ermənistan hakimiyyəti hətta "DQR"dən olan köçkünlər üçün xüsusi proqramlar, o cümlədən onların mümkün qayıdışı məsələləri departamenti yaratmaq istəmirdi. Özünü elan etmiş respublikanın "Təhlükəsizlik Şurası"nın keçmiş "katibi" Samvel Babayan belə bir təkliflə Paşinyana müraciət etsə də, ona heç bir izahat verilmədən rədd cavabı verilib. Bununla paralel olaraq Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzalayıb. O, Xankəndidə keçmişdə mövcud olmuş Pedaqoji İnstitutun bazasında fəaliyyət göstərəcək. Eyni zamanda, işğal müddətində ermənilər tərəfindən yaradılan "universitet" isə Ermənistana köçməyib, sadəcə ləğv edilib.

Bununla belə, Paşinyanın əleyhdarları Qarabağ uğrunda mübarizəni davam etdirməyə, onun Ermənistanın yükü deyil, qalxanı adlandırıldığı o vaxtların xatirəsini yaşatmağa çağırırlar. Məsələn, Ermənistan Demokratik Partiyasının lideri Aram Sarkisyan mühacirətdə hökumətin və "Qarabağ parlamenti"nin qurulmasında israrlıdır. "Bütün dünyada siyasətçilər öz qərarlarına haqq qazandırmaq üçün tarixi şərh edirlər. Bu mənada Ermənistan hakimiyyəti də istisna deyil", - deyə erməni politoloq Arşaluys Mqdesyan bildirib. "2020-ci ilə qədər "Qarabağ Ermənistandır, nöqtə" şüarını elan etdilər və müharibəni uduzduqdan sonra onlara müxalifətlə mübarizə aparmağa, xarici tərəfdaşlarla, o cümlədən Rusiya ilə münasibətlərdə ritorikasını sərtləşdirməyə və Qərbə yaxınlaşmağa kömək edən fərqli bir hekayə tapdılar. Eyni zamanda Mqdesyan qeyd edib ki, Ermənistan cəmiyyətinin nümayəndələri hakimiyyətin dəyişmiş ritorikasına fərqli reaksiya verirlər. Lakin onun əleyhdarları adlandırıla bilənlər hələ də azlıq təşkil edir. Bunu İrəvanın Ağsaqqallar Şurasına (qanunvericilik məclisi) seçkilər ən yaxşı şəkildə nümayiş etdirdi. Seçicilərin 28,46%-i səs verməyə gəlib - rekord aşağı fəallıq. Əhalinin qalan hissəsinin laqeyd olduğunu iddia etmək də olar. Onlar nə Paşinyanın danışdıqlarına, nə də opponentlərinin təklif etdiklərinə yaxın deyillər. Amma bu, indiki hakim rejimin dəstəyidir.

Bu gün Ermənistan ölüm-qalım dilemması qarşısındadır. "Müttəfiqlər"I özlərini xilaskar kimi təqdim edirlər, Rusiyaya qarşı İrəvanı "qurbanlıq qoyun" kimi hazırlayırlar. Ermənistan isə özünü qurulan dəzgahların əsl tərtibatçısı kimi göstərməyə çalışır. Ola bilsin ki, Ermənistan cəmiyyətində bunun məhz belə olduğunu düşünsünlər, amma reallıq tam başqadır. İrəvan özünü "ikili agent" kimi aparır, amma həm Qərbin, həm Rusiyanın istəyini eyni vaxtda yerinə yetirə biləcəkmi? Ermənistan hər keçən gün daha çox şey itirir. Fürsətləri qaçıran İrəvanın sülhə biganəliyi, bəhanələri ona çox ağır başa gələ bilər.

**V.VƏLİYEV**

# Qarabağda ekosid:
## talana görə təzminat tələb olunacaq

**"İşğaldan azad edilmiş ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyətin ekologiyaya vurduğu zərər hesablanır. Müxtəlif hüquq şirkətləri ilə çalışırıq ki, milli sərvətlərimizi talayan şirkətləri məsuliyyətə cəlb edək." Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirib.**

"İşğaldan azad edilmiş ərazilərdə vəziyyət öyrənilir. Bununla bağlı xüsusi heyət çalışır. Orada müxtəlif dövlət orqanlarının nümayəndələri təmsil olunub. Hazırda monitorinqlər davam edir. Hər bir kənd, hər bir sahə, məkan üzrə qiymətləndirmə işləri aparılır ki, qeyri-qanuni iqtisadi fəaliyyətin ekologiyaya vurduğu zərəri hesablayaq", - deyən dövlət başçısı xatırladıb ki, Kəlbəcər rayonunda 60 min hektara yaxın meşə qırılıb.

"Bu, bizim peyk vasitəsilə əldə etdiyimiz fotoşəkillərdə əks olunub. Həmçinin, transsərhəd çayların çirklənməsi ilə bağlı narahatlıq var. Xüsusilə, Zəngilan rayonundan keçən Oxçuçayın suyu artıq sarı rəngdədir. Bu da, sözün əsl mənasında, ekoloji fəlakətdir", - Prezident İlham Əliyev qeyd edib.

Ermənistanın təxminən 30 il davam etmiş və regionun ekoloji vəziyyətinə ciddi ziyan vurmuş işğalçılıq siyasəti nəticəsində işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı iqtisadi kontekstlə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarıb. Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub. Bu regionda ətraf mühitin deqradasiyası o qədər maneəsiz şəkildə baş verirdi ki, hətta Ermənistanın özündəki ekoloji təşkilatları belə narahat edirdi.











Qeyd edək ki, 27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində aparılmış 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı zəfərindən və Dağlıq Qarabağ bölgəsi və ərazi bütövlüyünün bərpasından sonra, işğal illəri ərzində həyat fəaliyyətinin müxtəlif sahələrində, o cümlədən ekoloji sahədə Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi prosesinə başlanıldı.

Bu ilin fevral ayının 27-də Azərbaycan Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq Ermənistana qarşı dövlətlərarası arbitraj prosesini başladı. Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş Arbitraj Bildirişində 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə Ermənistandan təzminat və maliyyə kompensasiyası tələb edib. İşğalçı dövlətin Azərbaycan torpaqlarını işğal etdiyi dövrdə dövlətimizə vurduğu ziyan milyardlarla dollar səviyyəsində ölçülür. Bu proses üzrə təzminatın məbləği də kifayət qədər yüksək olmalıdır.

Kəlbəcər rayonunun Ermənistanla sərhədində yerləşən və hazırda fəaliyyətini dayandırmış Söyüdlü (Zod) qızıl yatağı 1976-cı ildən istismar olunub və Ermənistan tərəfindən işğal edilənədək burada 27 tondan artıq qızıl hasil olunmuşdu. Sonrakı dövrdə ermənilər həm sənaye ehtiyatı 112,5 ton həcmində dəyərləndirilən Söyüdlü yatağını, həm də 13 tondan artıq ehtiyata malik olduğu düşünülən Ağduzdağ və Tutxun yataqlarını dədə malı kimi istismar ediblər. 2007-ci ildən Söyüdlü (Zod) yatağının idarəçiliyi "GeoProMining Gold Company"yə (GPM) verilib. Şirkətin saytındakı məlumata görə bu qurum Ermənistan və Rusiyada üç aktivi olan beynəlxalq şaxələndirilmiş metal hasilatı holdinqidir. O cümlədən Ermənistandakı aktivləri Sotk (Zod) kəndindəki "GPM Gold" hasilat müəssisəsi və Əgərək mis-molibden kombinatıdır. Zod mədənindən 2018-ci ildə 130 min ons qızıl hasil olunduğu bildirilir. Hesablamalara görə həmin yataq 18 il ərzində tükənəcək.



Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir müddət əvvəl sosial şəbəkədə Laçın rayonunda Ermənistan tərəfinin basdırdığı minanın detonasiyası nəticəsində ölən ayı balasının qalıqlarının görüntülərini də paylaşmışdı. Prezidentin köməkçisi həmin paylaşımda belə yazmışdı:

"Danışan Şəkillər! Azərbaycanın işğaldan azad edilmiş Laçın rayonunda minanın partlaması nəticəsində həlak olan qonur ayı balasının qalıqları. Partlayış sahəsindən toplanmış minaların damğaları onların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu göstərir. Ermənistan Azərbaycanın əvvəllər işğal olunmuş torpaqlarını milyonlarla mina ilə çirkləndirib və bu mina mülki əhalinin, habelə vəhşi heyvanların həyatını təhlükə altına almaqda davam edir".

Rəsmi məlumatlara görə, 2020-ci ildə Ermənistan Respublikasının işğalından azad edilmiş və 2023-cü ildə Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin, terror qruplarının qalıqlarından təmizlənmiş Azərbaycan Respublikasının ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda 1 milyondan çox mina və partlamamış hərbi sursatın mövcud olması ehtimal olunur. Təxminən Livan boyda olan bu ərazi dünyanın mina ilə ən çox çirklənmiş sahələrindən biri hesab olunur.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

Azərbaycanın işğal olunmuş ərazisində 160-dan çox müxtəlif qiymətli metal yataqları, o cümlədən 5 qızıl yatağı, 7 civə, 2 mis yatağı, habelə 1 qurğuşun və sink yatağı, 1 daş kömür yatağı, 6 alebastr, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 rəngli və dekorativ daş yatağı, 21 üzlük daş yatağı və s. var. 30 ilə yaxın bir müddət ərzində bu yataqla vəhşicəsinə istismar olunub, təbii sərvətlərimiz həm erməni, həm də beynəlxalq şirkətlər tərəfindən talan edilib. Bu talançılığa görə onların Azərbaycana təzminat ödəməsi mütləqdir.

***Lalə Mehralı***

# Qadınlara kim qənim kəsilib?







**Bu ilin 9 ayında qadınlara qarşı 5034 cinayət hadisəsi törədilib. Bunu "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda beynəlxalq konfransda panel müzakirəsi zamanı Baş Prokurorluğun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Rafael Süleymanov deyib.**

O bildirib ki, bu ilin 9 ayında ailə-məişət zorakılığı zəminində qadınlara qarşı törədilən cinayətlərin sayı 1296-dır: "Ailə-məişət zəminində törədilən cinayətlərin 1062-də zərərçəkmiş şəxs qadınlar, 344 nəfəri kişilər, 14-ü yetkinlik yaşına çatmayan şəxslər olub". Onun sözlərinə görə, bu sahədə artım dinamikası müşahidə edilir: "Bu cür cinayət işlərinin araşdırılması zamanı görülür ki, qısqanclıq zəminində adamöldürmə, intihar və intihara cəhd cinayətlərinin sayında artım dinamikası müşahidə edilir".

## Qadınlar kimin yerini dar edir?

Cəmiyyətdə sivilizasiya səviyyəsini müəyyən edən ən mühüm meyar o toplumda qadının statusudur. Genderlə bağlı araşdırmaların əksəriyyəti də qadınları kişilərlə müqayisə etməklə aparılır. Cinsimizi xromosomlar müəyyən etdiyi halda, gender balansımızı cəmiyyət müəyyən edir. Qadını əzən də bu cəmiyyətdəndir, əzdirən də. Döyən də içimizdəndir, izləyən də. Əslində, bütün demokratik ölkələrin siyasətinin əsasını gender bərabərliyi təşkil edir, lakin realda bir çox ölkədə qadınlar müstəqil və bərabərhüquqlu vətəndaş kimi sosial-ictimai həyatda iştirak edə bilmirlər.

Gender bərabərliyi qadın-kişi arasındakı sosial vəziyyəti, hüquqi maraqları, iqtisadi durumu tarazlaya bilir. Amma bu vəziyyətdən narahat olan güclü cins əlinə keçən hər fürsəti dəyərləndirir, qadınlar ailədə fiziki zorakılığa məruz qalır, bütün yolları yoxlayır, ailəsini qorumaq üçün hər fürsəti dəyərləndirir, amma vəziyyət düzəlmir. Qadın boşanmaqdan qorxur, çünki boşanmış qadın cəmiyyətdə stiqma ilə üzləşir. Onu boşandığı üçün qınayan cəmiyyət sosial-ictimai həyatda yer tutması üçün heç bir təşəbbüs göstərmir. Necə deyərlər, nə paraya dəy, nə bütövü kəs, amma doyunca ye...

## Qadınlara qarşı zorakılıq: niyə, nə üçün?

Qadınlar sadəcə öldürülmür, ağır işgəncələrlə və vəhşicəsinə yollarla qətl edilir. Bütün dinlərin, inancların, qədim adət-ənənələrin baş tacı etdiyi qadın bu dövrdə, bu əsrdə yerlərdə sürüklənir, kəndirdən asılır, dəlik-deşik edilir.

Qadınların vəhşicəsinə qətl edilmə səbəbləri arasında 3 əsas amil var - savadsızlıq, sevgisizlik, şüursuzluq. Hər 3 amili də ailə formalaşdırır. Əgər hər bir valideyn övladını sevgi ilə böyütsə, övladına insani dəyərləri aşılasa, təhsil versə bu cür psixoloji pozğunluğu olan kişilər cəmiyyəti birə kimi basmaz, zorakılıq edə bilməz. Oğlan uşağına bəy balası, xan nəvəsi ədası ilə davranan, elədiyi səhvi dəcəllik kimi qəbul edən, hərəkətlərinə göz yuman valideyn gələcəkdə övladının edəcəyi zorakılığa yol açır əslində.

Qadına qarşı yolverilməz hərəkətlər edən, söyən, döyən, qətl edən insanları da cəmiyyət olaraq biz yetişdiririk. Fundamental maarifləndirməyə əhəmiyyət verməli, insanları psixoloji cəhətdən islah etməli, düşüncələri dəyişib inkişaf etdirməli olduğumuzu bilirik. Çox vaxt bunu həyata da keçiririk. Amma nəticə istədiyimiz kimi olmur. Qadına qarşı zorakılıq hər gün, hər saat artır. Sabaha ümid bağlamırıq daha, çünki dünən sabahdan daha empatiya dolu idik.

## Bərabərlik - sözdə yox, əməldə

Dövlətimizin bütün qanunlarında, hüquqi sənədlərdə bərabərlik təmin edilir, lakin cəmiyyətin sosial bərabərlik anlayışı dəyişmədiyi üçün qadınlara sosial baxış da dəyişmir. Buna görə də anlayış dəyişikliyi tələb olunur. Qadınların maarifləndirilməsi, səhiyyə, siyasət və ictimai həyatda iştirakda qadınların prioritetliyi, qadınların öhdəlikləri ilə bağlı mənfi stereotiplərdən yaxa qurtarmaq və ailədə öhdəliklərin bölüşdürülməsi əsas hədəf olmalıdır. "Mən kişiyəm, mənə olar" ədası ailənin sonu olur, acı təcrübələrini çox görmüşük.

Ailədə qərarları birlikdə qəbul etmək, hüquq və vəzifələrdə bərabərliyi təmin eləmək, ailədə qız və oğlanlara bərabər münasibət göstərmək, qadınların sosial həyatda iştirakının təmin edilməsi və dəstəklənməsi, onların məşğulluğunun artırılması, qadınların ailə həyatı ilə iş həyatının bir-birini təmin etməsinə şərait yaratmaq, qadınların zorakılığa məruz qalmasının qarşısının alınması, ayrı-seçkiliyin qadağan edilməsi və ayrı-seçkiliklə mübarizə məsələsinin təşviqi, bərabər imkanların təmin edilməsi qadına göstəriləcək ən böyük dəstəkdir.

Qadın hüquqları ilə bağlı fəaliyyət göstərən bir çox layihə icraçıları elə düşünür ki qadınların hüquqlarını qadınlara başa salmaqla gender bərabərliyini təmin etmiş olurlar. Amma bu bərabərliyin təmin edilməsi üçün qadınlardan çox kişilərin maariflənməyə ehtiyacı var. Axı qadınları əzən, söyən, döyən, öldürən qadınlar deyil. Haqqını-hüququnu bilməsi qadına nə verir? Əvvəl 10 öldürülürdüsə, indi 9 öldürürlər, razıyam. 1 nəfər özünü xilas etdi, bəs yerdə qalanlar?

## Vəzifənin qadını, kişisi olur?

Gender bərabərliyinin təmin edilməsi və cəmiyyətdə qadınlara verilən rolların dəyişdirilməsi üçün bütün cəmiyyət olaraq qadınların qarşısında qoyulan maneələri aradan qaldırmaq, onları bərabərhüquqlu şəxsiyyət kimi qəbul etmək və cəmiyyətdə öz layiqli yerini tutmalarına dəstək olmaq lazımdır. Xüsusilə. kişilər qadınlara münasibətdə inqilab etməlidir.

Bizim ölkəmizdə iddia etdiyimiz qədər də öncəlik verilmir qadınlara. Doğrudur, əhəmiyyətli postlarda qadın vəzifəlilər var, lakin bu nisbət ölkənin qadın əhalisinin əhəmiyyətli faizi qədər deyil. Dövlət və özəl sektorda təmsil olunan qadınlardan əlavə sadə vətəndaşların iqtisadi imkanları o qədər də yüksək faizlə xarakterizə edilmir. İş qurmaq istəyən, sərbəst gəlir əldə etmək istəyən çox sayda qadın var. Əslində, bizim ölkədə sənədlərdə olan imtiyazlarından istifadə edə bilsələr qadınlar çox rahat həyat yaşayarlar, lakin sənəddə olanlar reallığa ötürülmür. Qadınlar iş mühitində sıxışdırılırlar, biznes imkanı əllərindən alınır, mental ayrı-seçkiliyə məruz qalırlar.

*Lalə Mehralı*



Mətanət MƏMMƏDOVA

# FRANSA: demokratiyanın beşiyində, yoxsa eşiyində?..

**Özünü hər zaman demokratiyanın beşiyi adlandıran, bütün dünyaya demokratiya "dərsi" keçən Fransa elə hər zaman da bəzi ölkələrdəki ictimai-siyasi hadisələrə yersiz müdaxiləri ilə demokratiyanın hələ içərisinə girə bilmədiyini, eşiyində qaldığını sübut edir.**

Biz belə demokratikləri çox görmüşük. Dünyaya "demokratik fikirlərlə" meydan oxuyan, əslində isə demokratiyanın nə olduğunu bilməyən, bəlkə də biləbilə boğanları çox görmüşük. Bunu illərlə "erməni demokratiyasını" dəstəkləyən Fransanın timsalında görmək bir o qədər də təəccüblü deyil. Çünki kim həmişə nədən bəhs edirsə, deməli, onda o yoxdur. Fransada demokratiyanın olmadığı kimi.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) Fransaya ezam olunmuş, həm də Şengen vizası olan əməkdaşı Aygün Həsənovaya Yeni Kaledoniyada yerli polisin nalayiq, qəddar rəftarı, ona qarşı qanunsuz davranışı əsassız tələblər irəli sürməsi bu "demokratik" ölkənin demokratiyasını sərgiləyir.

Belə bir sual çıxır meydana. Fransa əslində demokratik, yoxsa diktator ölkədir? Bu sualın cavabı jurnalistimizin qarşılanması və yola salınmasındadır. Uzağa getmək lazım deyil. Fransa diktaturası müstəmləkəsi Yeni Kaledoniyada demokratiyadan çox uzaqda olanları çəkib göstərəcək, yazıb dünyaya ötürəcək jurnalisti buraya niyə qoymalı idi? Paxırlarını açmaq üçünmü? Dünyadakı "demokratik" imicinə xələl gətirmək üçünmü?

Belə isə, Fransanı anlamaq da bir o qədər çətin deyil. Bu dövlət eyib və qüsurlarını ört-basdır etmək üçün söz, ifadə azadlığına qarşı çıxmayıb, nə etməli idi? Əslində özünü dünyaya əsl mahiyyəti ilə tanıtmaqda bundan yaxşı yol ola bilməzdi.

Yeni Kaledoniya xalqının zülmdən qurtulmaq, azadlığına qovuşmaq uğrundakı mücadiləsini işıqlandırmaq Fransaya sərf edəcək məsələdirmi? Əsla. Axı bu məsələ işıqlandırılsaydı, illərlə ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətini bəyənən, dəstəkləyən, hələ üstəlik "erməni soyqırımına " göz yaşı tökən Fransa dünya qarşısına başqa bir formada çıxmalı, demokratik anlayışın elə bumu olduğuna cavab verməli idi. Yeni Kaledoniya Fransanın üzr qarası, dırnaqarası demokratiyasının iç üzüdür. Buradakı həqiqətlərin bir jurnalistin, həm də azərbaycanlı jurnalistin görməsi Fransanın dünyadakı "nüfuzu" məsələsini ortaya qoyurdu axı.

Elə bütün bunlara görə də yerli polis lap əvvəldən məlumatlandırılmışdı. Yəni sənəddə "azərbaycanlı" göründüyü təqdirdə qarşılanma və yolasalma bu cür olacaqdı. Fransanın bu mövzuda başqa addım atmaq yolu yox idi. Lakin özünü başqa imiclə qələmə verdiyi dünyada bundan gözəl tanınmaq yolu da yox idi ki, bu da əməllərinin nəticəsi kimi gözləmədiyi təqdirdə qarşına çıxdı.

Dünya ədalətinin, demokratiyasının ayağa qalxmaq, Fransanın xırtdəyindən tutub demokratiyasının bumu olduğunu soruşmaq vaxtıdır. Qoy cavab versin, görək, media ilə, jurnalistlə bu cür davranmağı hansı demokratik əsasla həyata keçirir. Cavab versin, görək, jurnalistin fəaliyyətini məhdudlaşdırmaq hansı demokratik meyardan doğur.

Jurnalist həmkarımıza qarşı nalayiq hərəkət və davranışları bütün dünya jurnalistlərinə göstərilən təzyiq və təhqir hesab edirik. Çünki Fransanın müstəmləkəsinə dünyanın istənilən ölkəsindən jurnalist gedə bilərdi. Onların hər biri belə qarşılanacaqdımı? Bu bir qədər qaranlıq olsa da, düşündürücüdür.

Fransa dövləti bu, öz göstərişi deyilsə, günahkarın tezliklə cəzasını almasına çalışmalıdır. Bununla dünyaya ya öz demokratiyasını, ya da diktatorluğunu nümayiş etdirməli olacaq. Bir sözlə, dünya bilməlidir ki, əslində Fransa demokratiyanın beşiyinin içindədir, yoxsa eşiyində...

# "Ermənistanın təhlükəsizliyini ancaq Azərbaycanla sülh müqaviləsi təmin edə bilər"

**Ermənistan tərəfdən Azərbaycana qarşı Bakının guya "sülh prosesini ləngitməsi və sülhməramlı səyləri imitasiya etməsi" ilə bağlı absurd ittihamlar səsləndirilməkdə davam edir. Bizim üçün bu sirk tanışdır və kinayəli təbəssümdən başqa heç nəyə səbəb olmur.**





Erməni isteblişmentinin bir sıra nümayəndələrinin son zamanlar səsləndirdiyi bəyanatlardan bəzi nümunələr verək. Belə ki, dekabrın 4-də Ermənistan XİN rəhbərinin müavini Mnatsakan Səfəryan respublika parlamentində jurnalistlərlə söhbətində bildirib ki, "Azərbaycan sülh müqaviləsinin altıncı variantı ilə bağlı Ermənistanın təkliflərinə hələ də cavab verməyib. Cavab alan kimi sizə məlumat verəcəyik".

Halbuki, İrəvan Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsipə əsaslanan sülh müqaviləsi layihəsinin Ermənistan tərəfindən bir ilə yaxın gecikdirib və sənədin başqa erməni variantı ilə cavab verməyi lazım bilib. "Azərbaycanla qondarma "sülh müqaviləsi"nin vaxtından əvvəl imzalanması ehtimalı son dərəcə aşağıdır, Bakı hər şeyi əldə etmək istəyir",- bu müxalifət blokunun parlament fraksiyasının rəhbərinin bu günlərdə yaydığı növbəti ittihamdır. Hayk Mamicanyan "Beynəlxalq vasitəçilərin iştirakı olmadan Bakı ilə əlaqə saxlamamağa" çağırıb.

"Əslində Azərbaycan Ermənistandan ikinci dəfə, lakin artıq ikiqat təslim olmasını istəyir. Bakı istər "Arsax xalqı"nın geri qayıtması halında onların hüquqlarının və təhlükəsizliyinin təmin edilməsi baxımından, istərsə də ümumilikdə sülh müqaviləsinin müddəalarının həyata keçirilməsi baxımından istənilən beynəlxalq təminatları istisna etmək istəyir. Başqa sözlə, Azərbaycan müstəqil, öz aralarında və beynəlxalq təminat mexanizmləri olmadan razılığa gəlməyi təklif edir", - deyə deputat "Beşinci kanal"da bildirib.

Bütün dünyanı aldatmaq, sülh müqaviləsinin imzalanmasını mümkün qədər uzatmaq və ABŞ və Fransaya istədikləri hər şeyi, o cümlədən Rusiya ilə münasibətlərini pozmaq vədi verməklə Ermənistan riskləri tamamilə hiss etmir. Və bu ssenaridə Qərbə doğru hərəkət edən və Rusiyadan aktiv şəkildə qaçan erməni siyasi qatarının demək olar ki, hər an relsdən çıxıb aşması ehtimalı böyükdür.

Rusiyalı politoloq Vladislav Gerdinin fikrincə, Ermənistan uçurumun kənarında gedir və suveren statusunu itirə biləcəyini düşünmür. O, "Caliber" analitik mərkəzinə şərhində məsələ ilə bağlı fikirlərini səsləndirib. Ekspertin fikirlərini oxuuclarımıza təqdim edirik.

"Erməni "krallıq-dövləti"ndə, eləcə də onun liderlərinin- baş nazir Paşinyan və komandasının xüsusiyyətləri ilə bağlı nəyin səhv olduğunu söyləmək çətindir, lakin Paşinyan administrasiyasında bu məsələni təxirə salmaq adəti olduğu aydındır. Məhz bu "sonra üçün" prinsipi ona gətirib çıxarıb ki, Ermənistan hələ də təcrid vəziyyətindən çıxmayıb, sülh müqaviləsi imzalamayıb, siyasi təhlükəsizlik strategiyasını müəyyənləşdirməyib, özü üçün ən pis və təhlükəli olanı-ı qərbə sadiq olmaq hisslərinin tam tanınmasından ibarət olan variant seçib. Bunun müqabilində Ermənistan çox qeyri-müəyyən vədlər aldı, çünki Qərb əslində ona heç nə vəd edə bilməz. Amma görünür, amerikalı məmurların dostluq vədləri və mehriban təbəssümləri ermənilərin başını dumanlandırıb. Onlar həqiqətən də Qərb ölkələrinin bütün problemlərini onların yerinə həll edəcəyinə inanırdılar, lakin bu faktı nəzərə almadılar: bunula onlar dünyanın geosiyasi xəritəsində uzunmüddətli mövcudluq bünövrəsini qırırlar. Məsələ ondadır ki, ermənilər Cənubi Qafqaz regionunda təhlükəsizlik strukturunun aşkar aksiomlarını anlamırlar. Məsələ burasındadır: Azərbaycan güclü siyasət, qüdrətli ordu və əsas regional aktorlar - Rusiya, Türkiyə, İsrail və Böyük Britaniya kimi dövlətlərlə strateji əməkdaşlıq vasitəsilə regionda öz status-kvonunu bərqərar edib. Təsadüfi deyil ki, Bakının portfelində iki mühüm sənəd var- Rusiya ilə Moskva Bəyannaməsi və Türkiyə ilə Şuşa Bəyannaməsi.

Gürcüstanın Aİ ilə öz dialoqu və Rusiya Federasiyası ilə öz münasibətləri var, bütün keçmiş mənfiliklərə baxmayaraq, hazırda İrəvan və Moskva arasındakı münasibətlərdən qat-qat yaxşı mərhələdədir.

Amma Ermənistan hazırda necə deyərlər, "tam çılpaqdır". İrəvanın nə regionun əsas aktorları ilə, nə də regiondankənar oyunçularla dəqiq strateji əlaqələri yoxdur. Xarici qüvvələrin maraqlarının birbaşa Ermənistan ərazisində olan iri regional dövlətlərin maraqları ilə toqquşduğu bir şəraitdə isə bu ölkənin suverenliyi birbaşa təhdid altındadır",- rusiyalı politoloq vurğulayıb.

Onun fikrincə, yalnız Azərbaycanla sülh müqaviləsinin imzalanması Ermənistanı regionda təhlükəsizliyi təmin edə bilər. Əks halda onu fəlakət gözləyir.

"Bakı ilə sülh müqaviləsi imzalamaqla İrəvan avtomatik olaraq onun ərazi bütövlüyünün Azərbaycan və Türkiyə tərəfindən tanınmasını təmin edəcək. Ona görə də erməni siyasətçilərinin Bakının İrəvanı hansısa formada təhdid edə biləcəyi ilə bağlı bütün bəyanatları tam cəfəngiyyatdır. Sülh müqaviləsinin imzalanması faktının özü ermənilərin bütün narahatlıq və qorxularını aradan qaldırar. Amma Ermənistanın çox güvəndiyi regionun digər əsas aktoru olan İran, xüsusən də İrəvanın Tehranın ən qatı düşmənləri- Aİ və ABŞ-la yaxınlıq etməsi fonunda ermənilər üçün tamamilə gözlənilməz ola bilər. Özünü qorumaq və Ermənistanın regionda real himayədarsız qaldığını yaxşı bilən İran Ermənistanla ciddi eskalasiyaya başlamağa, cənubda bir sıra əraziləri təhlükəsizlik üçün bufer zona kimi "ələ keçirməyə" kifayət qədər qadirdir. Ermənilər bundan narahat olmalıdırlar və Qərb dövlətlərini onlara qoşulmağa dəvət etməməli və Azərbaycanla danışıqlarda beynəlxalq vasitəçi kimi istifadə etməməlidirlər",- deyə V.Gerdin yekunlaşdırıb.

***Elçin Bayramlı***

## Qəzzada hər 10 dəqiqədə bir uşaq öldürülür...



Ümumdünya Səhiyyə Təşkilatının Fələstin əraziləri üzrə nümayəndəsi Riçard Peperkorn Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə ofisinin həftəlik mətbuat konfransına onlayn qatılaraq İsrailin blokadası və intensiv hücumları altında olan Qəzzada vəziyyətlə bağlı qiymətləndirmələr edib.

SİA-nın əldə etdiyi məlumata görə, oktyabrın 7-dən bu yana Qəzzada təxminən 16 min adamın öldürüldüyünü xatırladan Peperkorn deyib: "Ölənlərin 60 faizdən çoxu qadın və uşaqlardır. 42 mindən çox adam yaralanıb. Qəzzada orta hesabla hər 10 dəqiqədə bir uşaq öldürülür. Bu mənada insanlığın ən qaranlıq nöqtəsinə girmişik. Qəzzada daimi atəşkəsə ehtiyac var".

Xatırladaq ki, "Həmas"ın hərbi qanadı Qəssam birləşmələri oktyabrın 7-də İsrailə qarşı "Əqsa tufanı" hücumuna keçdi. Buna cavab olaraq İsrail ordusu döyüş təyyarələri ilə Qəzza zolağına qarşı "Dəmir qılınclar" əməliyyatına başladı. Artan gərginlikdə əksəriyyəti uşaq olmaqla 16 minə yaxın fələstinli həyatını itirib.

## "Dünya yalnız insanların deyil"

*ŞƏRH EDİLDİ*

"Ekologiya bu gün ən vacib sahələrdən biridir. Artıq dünya özünün elə bir mərhələsinə qədəm qoyub ki, ekologiyaya xüsusi münasibət olmazsa, dünya öz-özünü dağıtmaq ərəfəsinə qədəm qoyar. Təbii ki, bu məsələ bütün dünya dövlətlərini narahat edir. Təsadüfi deyil ki, hazırda dünyanın bir çox ölkələri Dubayda keçirilən "COP-28" adlanan böyük bir tədbirdə iştirak edirlər və dünyanın gələcək taleyinin istiqamətini müəyyənləşdirirlər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Sadiq Qurbanov deyib.



Deputat bildirib ki, bu gün bütün dünya iqtisadi inkişafa nail olmaq istəyir: "Bu isə yüksək səviyyədə təhsil almaqdan keçir və bu təhsil nəticəsində yüksək texnologiyaların tətbiqi mühüm məsələdir. Bütün bunlar iqtisadi inkişafa hədəflənən amillərdir. İqtisadi inkişaf isə artıq dünyada ekologiyanın bir komponentinə çevrilib.

Ekoloji mədəniyyət və təhsil artmadan ekoloji cəmiyyət qurmaq mümkün deyil. Ekoloji cəmiyyətin qurulması üçün hər bir fərd anlamalıdır ki, dünya yalnız insanların deyil. Dünyada yaşayan milyonlarla müxtəlif canlı varlıq var. Unutmamalıyıq ki, insan dünyanın bir parçasıdır. Bu amillərin üstün tutulduğu cəmiyyətlər ekoloji cəhətdən təmiz ola biləcəklər. Təəssüflər olsun ki, hazırda iqtisadi baxımdan inkişaf etmək istəyən dövlətlərin bir çoxu bunu ekologiyaya zərər vuraraq həyata keçirir. Amma artıq yeni bir dünyanın astanasındayıq. Bu gün Azərbaycan dövlət olaraq yeni bir mərhələyə qədəm qoyub. Belə ki, yaşıl enerjidən, külək enerjisindən istifadə şərtləndirilir. Azərbaycanda ekologiyanın qorunması dövlət siyasəti səviyyəsində aparılır. Bu istiqamətdə işlərin görülməsi üçün yeni texnologiyaların da inkişafına xüsusi önəm verilir. Ümumilikdə ekologiyanın qorunması və bu istiqamətdə təhsil səviyyəsinin yüksəldilməsi üçün mütləq şəkildə maarifləndirmə işləri aparılmalıdır".

***Səbinə Hüseynli***

# 2024-cü ilin dövlət büdcəsi nə vəd edir?

## Gələn ilin büdcəsində bir sıra istiqamətlər üzrə xərclər kəskin artırılıb

**Xəbər verdiyimiz kimi, dekabrın 5-də Milli Məclisdə Azərbaycan Respublikasının 2024-cü il üçün dövlət büdcəsi təsdiq olunub. 2024-cü ilin dövlət büdcəsinin gəliri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, kəsiri 2 milyard 590 milyon manat, müvafiq olaraq icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat məbləğində qəbul edilib.**





Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır və bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4% çoxdur. İşsizlikdən Sığorta Fondunun 2024-cü ildə gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur və bu da cari ildəkindən 20,3 milyon manat yaxud 9,3 faiz çoxdur.

2024-cü il üçün yaşayış minimumunu ölkə üzrə 246 manatdan 270 manatadək artırılılıb.

Əgər dövlət büdcəsi xərclərinin ÜDM-də payı 2017-ci ildə 25% idisə, 2024-cü ildə 31%-ə yüksəlib və xərclərin həcmi 2 dəfədən çox artıb. 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat çoxdur. 2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərcləri təminetmə səviyyəsi 75%-i keçib. Qeyri-neft sektoru üzrə büdcə gəlirləri son 7 ildə 2 dəfəyə yaxın artıb.

Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 138,2 milyon manat çoxdur. Dövlət büdcəsi kəsirinin ÜDM-də payı 2,2 faiz proqnozlaşdırılır.

Bütövlükdə isə 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 997 milyon manat, icmal büdcənin xərcləri 42 milyard 376 milyon manat proqnozlaşdırılır. İqtisadi artımın proqnozlaşdırılan orta illik tempi 2,9%, həmçinin qeyri-neft sektoru üzrə 4,8% nəzərdə tutulub.

2023-cü ilin sonuna orta illik inflyasiyanın birrəqəmli səviyyədə olacağı proqnozlaşdırılır. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, artıq 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli 9,4% olub.

2024-cü ilin dövlət büdcəsi xərclərinin 43%-i, büdcənin cari xərclərinin isə 70 faizi sosialyönlü xərclərdir (15,8 mlrd. manat). 2020-ci illə müqayisədə bu xərclər mütləq ifadədə 6 milyard manat və ya 1,6 dəfə artıb. Son beş ildə 4 milyon nəfəri əhatə edən 4 sosial islahat paketi icra olunub, bu islahatlara 7 milyard manata yaxın əlavə vəsait yönəldilib.

Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 mlrd manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub.

Artıq Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə qayıdış prosesinin ilkin mərhələsinə start verilib, 2026-cı ilədək 34,500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulub.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Proqramına uyğun olaraq ümumilikdə 987 ailənin (3932 nəfər) köçürülməsi təmin olunub. Cari ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir.

Qarabağ iqtisadi rayonunun əraziləri- Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub. Müdafiə və milli təhlükəsizlik xərcləri üçün 2024-cü ilin dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 6,4 milyard manatdan artıq vəsait nəzərdə tutulub. Bu da 2023-cü ilə nisbətən 366 milyon manat və ya 6 faiz çoxdur.

Növbəti il üzrə təhsil xərclərinə 4,5 milyard manat vəsait proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 3,2 faiz çoxdur. 2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulur. Ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı da tədbirlər həyata keçirilir. Bu baxımdan ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdəndir.

Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır. Gələn ilin dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin 890,4 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına isə 249 milyon manat vəsait nəzərdə tutulub. Hazırda strateji valyuta ehtiyatlarımız 68,3 milyard ABŞ dolları təşkil edir ki, bu da Ümumi Daxili Məhsulun 97 faizinə bərabərdir.

2024-cü ilin makroiqtisadi çərçivəsi də ölkə iqtisadiyyatının real artımı, məqbul inflyasiya səviyyəsi və profisitli tədiyə balansı ilə proqnozlaşdırılır. Büdcədə neftin qiyməti 60 ABŞ dolları müəyyən edilib.

Gələn ilin dövlət büdcəsini nəzərdən keçirdikdə aydın görünür ki, dövlətimiz üçün prioritet xərc ixtiqamətləri hansılardır və gələn il hansı sahələrdə ciddi dəyişiklik olacaqdır. Qeyd etmək lazımdır ki, büdcədə sosial xərclərin, müdafiə və təhlükəsizlik xərclərinin, həmçinin Qarabağın yenidənqurulması üzrə xərclərin ciddi məbləğdə artırılması təbiidir. Bununla yanaşı bir sıra digər sahələrdə də xərclər artırılıb.

İqtisadi investisiyalar və infrastruktur yenilənmələri strateji inkişaf proqramına uyğun şəkildə formalaşdırılır. Həmçinin, qlobal iqtisadi və ticari layihələrin həyata keçirilməsi də çox vacibdir. Bunun üçün də ölkədə yeni dəmiryolu və avtomobil yolları çəkilir. Regionların inkişafını gücləndirəcək xərcləmələr müxtəlif sahələr üzrə artırılıb. Təzliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da dövlət büdcəsinin gəlirlərindəki payı kəskin artracaq.

Ümumiyyətlə, dünyada iqtisadi böhranların səngimədiyi, müxtəlif ölkələrdə çox ciddi iqtisadi, sosial problemlərin, hiperinflyasiyanın yarandığı bir şəraitdə Azərbaycanın iqtisadin inkişafı, ümumdaxili məhsulu və dövlət büdcəsi müsbət yöndə artan tepm nümayiş etdirir. Bu özünü artıq parlament tərəfindən qəbul edilmiş 2024-cü ilin dövlət büdcəsi layihəsində də göstərir. Şübhə yoxdur ki, gələn il büdcədə gəlirlər nəzərdə tutulandan xeyli çox olacaq, paralel olaraq əlavə gəlirlərin sosial sahələrə yönəldilməsi mümkün olacaq.

İndiyədək həyata keçirilmiş iqtisadi proqramlar artıq neftdən asılılığı xeyli azaldıb və qeyri-neft sektorunun iqtisadiyyatımızdakı çəkisini ciddi şəkildə yüksəldib. Bu nəticə özünü dövlət büdcəsinin gəlirlərində də aydın göstərir. İndiyədək iqtisadiyyatımıza qoyulmuş investisiyalar artıq bəhrə verməyə başlayıb və bu da özünü ümumdaxili məhsulun tərkibində və büdcədə ifadə edir.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi də kəskin artaraq 55 milyard dollardan 68 milyard dollara çatıb ki, bu da ölkəmizin maliyyə yastığı olduğuna dair aydın faktdır.

Yekun olaraq qeyd etmək istəyirik ki, Azərbaycanın makroiqtisadi göstəricilərinin sürətlə artması beynəlxalq maliyyət təşkilatları tərəfindən də etiraf olunur və ölkəmizin iqtisadi reytinqi də hər il artır. Bütün bunlar isə həm dövlətimizin beynəlxalq nüfuzunu gücləndirir, həm də ölkəmizdə sosial-iqtisadi inkişafın sürətlənməsinə zəmin yaradır.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*




## "Nar"-dan "Dinlət" xidməti ilə tərzini paylaş

Hər zaman müştəriyönümlülük və sərfəli qiymət strategiyasına sadiq qalan "Nar" öz abunəçiləri üçün yenilənmiş "Dinlət" xidmətini təqdim edir. Bir zamanların ən çox istifadə edilən xidmətlərindən biri olan "Dinlət" yeni funksiyalarla təkmilləşdirilib. İndi "Nar" abunəçiləri ayda cəmi 1.8 AZN ödəniş etməklə "Dinlət" parçasını istənilən sayda aktivləşdirə biləcək. Xidmətə qoşulmaq üçün www.dinlet.az platformasındakı parçalardan istədiyinizi seçib *185*Dinlət-Kodu#YES yığmaq kifayətdir.




Qeyd edək ki, "Dinlət" xidmətinə qoşularaq sizə zəng edənlərə standart zəng səsi əvəzinə sevdiyiniz musiqi parçalarını, fərqli melodiyaları, əyləncəli replikaları və s. dinlədə biləcəksiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

SON SƏHİFƏ
SƏS
7 dekabr
2023-cü il

# Ölkəmizdə insanların kinoteatrlara getmək həvəsi nə dərəcədədir?

## ŞƏHƏR SAKİNLƏRİ ARASINDA SORĞU

**Kinoteatrlar kinofilmlərin göstərildiyi ictimai binalardır. Bəs, Azərbaycanda insanların kinoteatrlara getmək həvəsi nə dərəcədədir? SİA bu mövzuda paytaxt sakinləri arasında sorğu keçirib.**



**Şəhər sakini Şərmin Nəzərova:** "Mən daha çox teatra gedirəm. Opera və Balet Teatrında tez-tez oluram. Əvvəllər Kukla Teatrında olmuşam. Sonuncu dəfə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrına getmişəm. Opera və Balet Teatrında Yusif Qasımovun 75 illik yubileyi keçirilmişdi. Tədbirdə iştirak etmişdim. Çox maraqlı idi. Xalq artisti Təranə Muradovanı tanıyıram. Xoreoqrafiyada oxuduğum üçün aktyorları yox, aktrisaları daha çox tanıyıram. Azərbaycan filmlərini isə, düzünü desəm, bəyənmirəm. Daha çox xarici filmlərə marağım var".

**Şəhər sakini Aytac Cəbiyeva:** "Kinoteatrlara getmirəm. Marağım var, amma hələlik, dəvət edən də olmayıb. Tək getmək maraqsız olardı. Ümumiyyətlə, filmlər mənə motivasiya verir. Həyat daha da maraqlı gəlir. Onların həyatlarını bəzən özümə nümunə götürürəm".

**Şəhər sakini Ədalət Mustafazadə:** "Bəli, getmişəm. Tələbə olduğum üçün dərslərdən çox da vaxtım olmur, amma sevirəm. Tək maraqlı olmadığı üçün, əlavə bir nəfərlə getməyə üstünlük verərəm. Belə daha zövqlü olur. Hər kəsə də getməyi tövsiyə edərəm. Sevdiyim hər hansı film yoxdur. Bu barədə fikirləşməmişəm. Dərslərə görə vaxt məhdudiyyətim olur".

**Şəhər sakini Fatimə Əhmədova:** "Sonuncu dəfə valideynimlə "Toydan bir gün əvvəl" tamaşasına getmişəm. Filmdənsə, teatra getməyi bəzən daha üstün tuturam. Filmlərdən "Bizim Cəbiş müəllim", "Otel otağı"nı izləmişəm. Qədim Azərbaycan filmlərini isə teatrda izləmək xoş olardı. Həftə sonları vaxtım olduqca gedə bilirəm. Məktəbli olduğum üçün məşğələlərdən çox da vaxt olmur. Amma valideynlərim də, mən də teatrı sevən insanlarıq. Vaxt olduqca getməyə çalışırıq".

**Şəhər sakini Sadiq Məlikov:** "Hələ ki, kinoteatrlara getməmişəm. Amma getmək fikrim var. Ya oğlan dostlarımla, ya da qız dostumla getmək istəyərəm. Dostlarımla atraksion, qız dostumla isə sevgi filminə getmək yaxşı olardı. Azərbaycan aktyorlarını çox da sevmirəm. Azərbaycan filmlərindən bəziləri yaxşıdır, bəzilərinə baxmamışam da. Televiziyada "Vicdan haqqı"na baxırdım. Tələbə olduğum üçün vaxt edib baxa bilmirəm. Uşaq ikən baxırdım."

**Şəhər sakini Fərhad Məhəmmədov:** "Kinoteatrlara getmirəm. Çünki hər şeyə evdə telefonla, kompüterlə rahat baxmaq olar. Kinoteatrlara getmək üçün isə vaxt ayırmaq lazımdır. Azərbaycan kinolarının səviyyəsi orta dərəcədədir. Ən sevdiyim film yoxdur, bəyəndiklərim var. Ancaq janrları deyə bilərəm".

**Şəhər sakini Pərvanə Süleymanlı:** "Kinoteatrlara getmirəm. Çünki vaxtımı uyğunlaşdıra bilmirəm. Televiziyadakı kinoların səviyyəsi çox aşağıdır. Yəqin ki, kinoteatrlarda yaxşı olar. Azərbaycan filmlərindən isə "Uçurum" filminə baxmışam. Amma indi Azərbaycan filmlərini izləmirəm. Xarici filmlərə baxıram. Çox qarışıqdır, indi xatırlamıram".

**Şəhər sakini Fatimə Kazımlı:** "Kinoteatrlara getmirəm. Universitetdə müəllimlik ixtisasını oxuduğum üçün öz dərslərimi çatdıra bilmirəm deyə, belə şeylərə vaxt ayıra bilmirəm. Məncə, filmlərin səviyyəsi keçmişə baxanda indi aşağı səviyyədədir. Azərbaycan filmlərinə önəm verilmədiyi üçün kinoteatrlara gedən gənclərin sayı azdır. Daha çox məhəbbət mövzulu filmləri sevirəm. Son zamanlar isə milli kinolarımıza daha çox üstünlük vermək istəyirəm".

**Şəhər sakini Rahidə Hacıyeva:** "Kinoteatrlara gedirəm. Sonuncu dəfə yayda "Barbie" filminə getmişəm. O qədər də sevmədim, normal idi. Keçmiş filmlərimizdən "Sehirli xalat"ı izləmişəm".

***Ayşən Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Avtomobildə yüksək səslə musiqi dinləyənləri hansı cəza gözləyir?

## EKSPERT DANIŞDI

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində avtomobildə yüksək səsdə musiqi dinləməyə görə heç bir cəza nəzərdə tutulmayıb. Bu mövzuda ətrafdakılara maneə yaratmamaqla bağlı yalnız tövsiyə xarakterli çağırışlar edilə bilər, amma qanunvericilikdə bu baxımdan heç nə yazılmayıb və buna görə də sürücüyə Dövlət Yol Polisi inspektoru tərəfindən heç bir cərimə tətbiq oluna bilməz". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Rövşən Həsənov deyib.**



Ekspert sözlərinə davam edərək bildirib ki, saat 00:00-dan 07:00-a qədər yüksək səslə musiqi dinləyib ətrafdakıları narahat etdikləri müəyyənləşdirildiyi hallarda İnzibati Xətalar Məcəlləsinin 521-ci maddəsinə əsasən, 150-200 manat civarında cərimə tətbiq etmək olar: "Burada söhbət mənzillərdə, yaşayış evlərinin həyətlərində yüksək səslə musiqi dinlənilməsindən gedir. Yoxsa, şəxs şəhərin mərkəzində yolla gedərkən avtomobilin içində ürəyi istəyən musiqiyə qulaq asa bilər və buna cərimə tətbiq oluna bilməz. Hərçənd bu, bir yandan yay vaxtı səs-küy salınmaması üçün yaxşıdır, amma digər tərəfdən sürücünün hüquqları tapdalanır, çünki daşınan əmlak onun şəxsi mülküdür".

***Ləman Sərraf***



## Həyəcan təbili: "İntihar və intihara cəhdlərin sayında ciddi artım var"

"Hazırda intihar və intihara cəhdlərin sayında ciddi artım qeydə alınır". SİA xəbər verir ki, bunu Baş Prokurorluğun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Rafael Süleymanov "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

Onun sözlərinə görə, intihar halları əsasən ailə daxilində baş verdiyindən çox zaman qapalı qalır və yaxın şəxslər bu haqda məlumat vermək istəmirlər: "Bu səbəbdən belə halların açılması ya natamam qalır, ya da açılmır, hüquq-mühafizə orqanları ciddi problemlərlə qarşılaşır. Odur ki, intihar hallarının üstünün açılmasında ciddi problemlər yaşanır. İntihara cəhd etmiş şəxslə bağlı sonradan psixoloji ekspertiza aparılır ki, o həqiqətən özünü öldürmək istəyib, ya yox?! Təəssüf ki, bu sahədə psixoloji ekspertizalarımız azdır".


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**